*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 172 (28848) 4 avqust 2018-ci il, şənbə*

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Son illərdə sel və daşqınların zərərli təsirlərindən qorunmaq üçün genişmiqyaslı və böyükhəcmli mühafizə tədbirləri həyata keçirilmiş, daşqın təhlükəli çayların sahili boyunca mühafizə bəndləri tikilmiş, mövcud bəndlərin hündürlüyü artırılaraq möhkəmləndirilmiş, sel və daşqın sularının maneəsiz ötürülməsi üçün digər zəruri tədbirlər görülmüşdür. Qeyd olunan işlərin davamlılığı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamına əsasən “Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri”nin icrası üçün Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 5 milyon manat vəsait ayrılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.84-cü bəndində göstərilmiş məbləğin 11 352 000 (on bir milyon üç yüz əlli iki min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 avqust 2018-ci il**

## M.P.Qasımlının “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan aşıq sənətinin tədqiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Paşa oğlu Qasımlı “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 avqust 2018-ci il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 339** **Bakı şəhəri, 3 avqust 2018-ci il**

**Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində daşınan yanacağın miqdarının tənzimlənməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrinin mühərriklə texnoloji bağlı olan texniki pasportunda nəzərdə tutulmuş baklarının tutumunun miqdarından artıq keçirilən benzinin və (və ya) dizel yanacağının hər 1 (bir) litri üçün 0,6 ABŞ dolları məbləğində spesifik gömrük rüsumu alınır.

**2.** Bu qərarın 1-ci hissəsində göstərilən məbləğ avtonəqliyyat vasitəsinin mülkiyyətçisi və ya qanunvericiliklə müəyyən edilmiş qaydada idarəetmə hüququ olan şəxs tərəfindən gömrük-sərhəd buraxılış məntəqələrindəki gömrük orqanlarına bank, poçt və ya plastik kart vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının həmin gün üçün müəyyən etdiyi məzənnəyə uyğun olaraq manatla ödənilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

❒ ***Gənc müstəqil Azərbaycan Respublikası bu gün sosial-iqtisadi inkişaf, islahatların dərinləşdirilməsi, cəmiyyətin daha da demokratikləşdirilməsi baxımından regionun lider, dünyanın isə aparıcı dövlətlərindən birinə çevrilib. Rəsmi Bakı BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik edib, paytaxtımız dünyanın mötəbər beynəlxalq təşkilatlarının tədbirlərinin keçirildiyi ünvan kimi tanınır. Üzərində üçrəngli bayrağımızın təsviri olan rabitə peyklərimiz kosmosda dünyanın güclü dövlətlərinin peykləri ilə yanaşı dövr edir. Bütün bunlarla yanaşı ölkə vətəndaşlarının sosial-rifah halının yaxşılaşdırılmasına xidmət edən uğurlu daxili siyasət kursu da həyata keçirilir. Həmin siyasətin ən mühüm tərkib hissələrindən biri isə paytaxtla yanaşı, ölkə regionlarının da sürətli inkişafının təmin edilməsidir.***

***Mən hər il onlarla rayona səfərlər edirəm, keçən il otuzdan çox rayonda olmuşam. Hər dəfə görülən işlərlə maraqlanıram, nəzarət edirəm, eyni zamanda, yerlərdən təkliflər alıram. Ona görə bu proqramlara bəzi hallarda zərurət yarandıqca əlavələr olunur. Odur ki, proqramların təhlilini apararkən biz mütləq əlavələri də nəzərə almalıyıq.***

***Prezident İlham Əliyevin “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı nitqindən***
***Bakı, 29 yanvar 2018-ci il***

# Regionların sosial-iqtisadi inkişafı daim dövlətin diqqət mərkəzindədir



Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilərkən, onun qarşısında genişmiqyaslı vəzifələr dayanırdı. Böyük xilaskar Heydər Əliyevin qurub-yaratdığı gənc müstəqil Azərbaycan Respublikasının suverenliyinin qorunub saxlanılması, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, təbii sərvətlərdən əldə edilən gəlirlərdən bütün vətəndaşların bəhrələnməsinə nail olunması, xalqın rifahının daha da yaxşılaşdırılması, ordunun gücləndirilməsi, elm və təhsilin sovet stereotiplərindən xilas edilməsi, infrastrukturun yeniləşdirilməsi və sairə məsələlərin hamısı bir nömrəli vəzifə təsiri bağışlayırdı. Ancaq cənab İlham Əliyevin Prezident kimi imzaladığı ilk sənədlər əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması haqqında sərəncam və regionların sosial-iqtisadi inkişafını təmin edəcək Dövlət Proqramının təsdiq edilməsi barədə fərman idi.



Bəri başdan qeyd edək ki, cənab Prezident yuxarıda sadaladığımız vəzifələrin (ərazi bütövlüyümüzün bərpası istisna olmaqla) hamısının yüksək səviyyədə yerinə yetirilməsinə nail olub. Özü də mükəmməl, elmi və iqtisadi cəhətdən əsaslandırılmış Dövlət Proqramlarının icrası nəticəsində. Məhz həmin proqramların önündə 2004-2008-ci illərdə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” dururdu. Doğrudur, sonralar həmin istiqamətdə daha iki dövlət proqramı imzalanmışdı. Ancaq regionların və bütövlükdə ölkəmizin sürətli inkişafının təmin edilməsində birinci dövlət proqramının icrasının xüsusi rolu olmuşdur.

Yeri gəlmişkən, bu il yanvarın 29-da Heydər Əliyev Mərkəzində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda dərin məzmunlu nitq söyləyən Prezident İlham Əliyev məxsusi olaraq xatırlatmışdı ki, birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Həyat bunu əyani şəkildə göstərir. 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram, demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Azərbaycan regionlarının sürətli inkişafı məhz birinci proqramın icrası ilə bağlı idi.

Prezident öz nitqində başqa bir məsələyə də toxunaraq bir qədər də əvvələ – 2003-cü ilin payızına qayıtmağı məqsədəuyğun saydı: “Mən 2003-cü ildə Prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 15 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi”.

Bəs son 15 ildə Azərbaycan regionlarının həyatında hansı yeniliklər baş verib? Bu sualın cavabını kitablarda, arxivlərdə axtarmağa ehtiyac yoxdur. Çünki həmin illər ərzində regional inkişaf proqramlarının icrasının nəticələri göz qabağındadır. 2004-cü ildə dövlət başçımız tapşırmışdı ki, müasirləşməyə, inkişafa ilk növbədə, infrastruktur layihələrindən başlamaq lazımdır. Çünki bu olmadan hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Ona görə də ölkənin elektrik enerjisi təsərrüfatına böyük investisiyalar qoyuldu. Son 15 il ərzində ölkədə 30 elektrik stansiyası tikilmişdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Xatırladaq ki, 2004-cü ilə qədər Azərbaycanda bütün dövrlər ərzində 9 elektrik stansiyası tikilmişdir. Ancaq onların generasiya gücü böyük idi, onların potensialı 3900 meqavatdır. Qeyd edilən dövrdə isə biz 15 il ərzində generasiya gücümüzün 2500 meqavat artırılmasına nail olduq. Prezidentin dediyinə görə, bu il həmin rəqəm 2900 meqavata çatdırılacaq.



Müxtəlif qurumların tərtib etdiyi hesabatlarda qeyd edilir ki, 2004-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 faiz idi. Bölgələrdə, demək olar ki, qaz yox idi, hətta əyalət şəhərlərində də qaz məsələsi problem idi. Kəndlərdə isə, ümumiyyətlə, yox idi. Hazırda isə Azərbaycanda qazlaşdırma 93 faizə çatıb. Bütün şəhərlərimiz qazla 100 faiz təmin edilib.

Başqa bir məsələyə diqqət yönəldək. Əgər 2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz idisə, hazırda bu göstərici 67 faizə çatdırılıb, Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Ona görə həmin sahəyə bu il və gələn illərdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur ki, bu məsələni də həll edək. Demək olar ki, bir çox şəhərlərimizdə içməli su və kanalizasiya layihələri uğurla başa çatdırılıb. Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri -- bu da tarixi hadisədir -- inşa edilib. Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu tikilibdir. Bu gün bu qurğudan çıxan sular keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verir.

*(ardı 2-ci səhifədə)*

❒ ***Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən neft strategiyası ötən müddətdə davamlı və sabit inkişafa təminat yaradıb. Hazırda Azərbaycanın həyati əhəmiyyət daşıyan bütün istiqamətlər üzrə inamla irəliləməsi, beynəlxalq nüfuzunun getdikcə möhkəmlənməsi də məhz həmin strateji kursun məntiqi nəticəsidir.***

# Azərbaycanın neft strategiyası davamlı və sabit inkişafa təminat yaradır



1994-cü il sentyabrın 20-də Bakıda dünyanın aparıcı neft şirkətləri ilə müasir tariximizə “Əsrin müqaviləsi” adı ilə əbədilik həkk olunan “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” saziş imzalanmasından sonra ölkəmiz enerji daşıyıcılarının beynəlxalq bazarlara nəql edilməsi istiqamətində möhtəşəm layihələr həyata keçirdi. Xəzər hövzəsi ölkələri ilə Qərbin enerji korporasiyaları arasında əməkdaşlığın başlanğıcını qoyan “Əsrin müqaviləsi” çərçivəsində qazanılan nailiyyətlər xarici neft və qaz şirkətlərinin Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına marağını daha da artırdı. Hazırda quruda və dənizdə yerləşən əməliyyat sahələrində 17 layihə üzrə imzalanan Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) uğurla həyata keçirilməkdədir.

“Əsrin müqaviləsi”nin imzalanmasından ötən müddətdə ölkə iqtisadiyyatının, xüsusən sənayenin, o cümlədən neft sektorunun şaxələndirilməsi, beynəlxalq standartlara uyğun yenidən qurulması, innovativ texnologiyalarla təchiz olunması, yeni idarəçilik metodlarının mənimsənilməsi üçün geniş imkanlar yaranıb. Xarici neft şirkətləri ilə birlikdə axtarış-kəşfiyyat, qazma, tikinti və hasilat üzrə böyük iş həcmi görülüb və uğurlu nəticələr alınıb. Nəhəng “Şahdəniz” qaz-kondensat yatağı, orta səviyyəli “Əşrəfi” və “Qarabağ” yataqları aşkar edilib, “Abşeron” və “Ümid” yataqlarının işlənilməsinə başlanılıb.

“Azəri-Çıraq-Günəşli” yataqlar blokunda ilk neftin alındığı 1997-ci ildən ötən müddətdə aparılan kompleks tədbirlər hasilatın sürətli templərlə inkişafına güclü təkan verib. Hazırda hasil edilən karbohidrogenlərin əsas hissəsi məhz “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan və “Şahdəniz” yatağından əldə olunur.

Azərbaycan dövləti ötən il neft hasilatının sabit davam etdirilməsinin vacibliyini nəzərə alaraq bu layihə üzrə yeni HPBS-nin imzalanması üçün tərəfdaşlarla müzakirələr aparıb və AÇG layihəsi üzrə sazişin 2050-ci ilədək uzadılmasını nəzərdə tutan yeni müqavilə imzalayıb. Prezident İlham Əliyev imzalanma mərasimində etdiyi nitqdə Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün yeni sazişin çox böyük əhəmiyyətə malik olduğunu söyləyib. Sazişə əsasən, SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb və xarici investorlar tərəfindən Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard ABŞ dolları həcmində bonus ödənilməsi nəzərdə tutulub.

Növbəti 32 il müddətində AÇG-yə 40 milyard ABŞ dolları həcmində sərmayə qoyulması gözlənilir. Eyni zamanda, SOCAR-ın AzAÇG şirkəti podratçı qismində kontraktın icrasında iştirak edəcək, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz olacaq.

Hasilat göstəricilərindən danışarkən, SOCAR-ın öz müəssisələrində çıxarılan məhsulun bu həcmlərin əhəmiyyətli hissəsini təşkil etdiyi qeyd olunmalıdır. Bununla bağlı cari ilin ikinci rübündə əldə edilən bəzi göstəricilərə diqqət yetirək. Belə ki, hesabat dövründə SOCAR üzrə neft hasilatı birinci rüblə müqayisədə 3,6 faiz artaraq 1,9 milyon tona yüksəlib. Altı ay ərzində isə SOCAR üzrə 3,7 milyon ton neft hasil olunub.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycanın neft strategiyası davamlı və sabit inkişafa təminat yaradır

(əvvəli 1-ci səhifədə)

Ölkə üzrə cari ilin birinci yarısında ümumilikdə 19,38 milyon ton neft hasil edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatında 1,2 faiz artım deməkdir.

SOCAR üzrə hasilatın sabitləşməsi və artırılması strateji əhəmiyyətli yataqlarda həyata keçirilən kompleks tədbirlər planı ilə bağlıdır. Bu istiqamətdə qazma işlərinin artırılması da mühüm yer tutur. Cari ilin yanvar-iyun aylarında 80 min metrə yaxın quyu qazılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,4 faiz daha çoxdur. Qazma işlərinin 39 min metrdən çoxu cari ilin ikinci rübünün (aprel-may-iyun) payına düşür.

Bu ilin ikinci rübündə SOCAR üzrə qaz hasilatı birinci rüblə müqayisədə 5,29 faiz artaraq 1,66 milyard kubmetrə çatıb. Birinci yarım ildə SOCAR üzrə 3,2 milyard kubmetr qaz hasil olunub.

Cari ilin altı ayı ərzində ölkə üzrə isə ümumilikdə 14,36 milyard kubmetr qaz hasil edilib. Yarım ildə qaz hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artıb.

Cari ilin ikinci rübündə SOCAR üzrə xam neft və neft məhsullarının ixracında əhəmiyyətli artım müşahidə olunub. Ötən ilin müvafiq dövrünə nisbətən xam neftin ixracı 18 faiz artaraq 6,1 milyon tona yüksəlib. Hesabat dövründə xam neftin ixracı bir il əvvəlki dövrün müvafiq göstəricilərini 24 faiz geridə qoyaraq 2,1 milyon tona qədər artıb.

Sözügedən dövrdə "BP Azerbaijan" şirkətinin fəaliyyəti də uğurlu olub. Bu barədə söhbət açmazdan əvvəl onu qeyd edək ki, cari ilin ikinci rübünün sonuna BP şirkətinin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2 min 669 nəfər təşkil edib. Bura müddətli müqavilə əsasında çalışan işçilər də daxildir. Bu, şirkətin Azərbaycanda ixtisaslı işçilərinin 90 faizdən çoxunu təşkil edir ki, onların da əksər hissəsi rəhbər vəzifələrdədir.

BP-nin 2018-ci ilin sonunadək ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edəcəyi barədə öhdəliyi var. Bu, o deməkdir ki, ixtisaslı işçi tələb edən bir sıra vəzifələrdə yerli kadrlar xarici vətəndaşları əvəz edəcəklər. İxtisası olmayan işçilərin isə artıq 100 faizi yerli vətəndaşlardan ibarətdir. İşçi heyətin milliləşdirilməsi planına, həmçinin BP-nin təlim və inkişaf proqramlarının daha da optimallaşdırılması, yüksək səviyyəli kadrlar üzrə yerli bazarı daha da yaxşılaşdırmaq məqsədilə dövlət və özəl sektorun təşəbbüslərində yaxından iştirak daxildir.

BP və tərəfdaşları Azərbaycandakı sosial layihələrin reallaşmasında da fəal iştirak edirlər. Onlar tərəfindən bu ilin birinci yarısında Azərbaycandakı sosial investisiya layihələrinə 2,3 milyon dollar xərclənib.

Xəzər dənizindəki layihələrin uğuru həm də əməliyyatçının regiondakı ölkələrin əhalisi üçün bu layihələr vasitəsilə hiss edilən faydalar yaratmaq bacarığından asılıdır. Buna nail olmaq üçün BP ardıcıl şəkildə mühüm sosial investisiya layihələri həyata keçirir. Bu layihələrə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması, icmaların sosial infrastrukturla bağlı vəziyyətinin təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlim vasitəsilə yerli müəssisələrə, mədəni irs və idmanın inkişafına dəstək, eləcə də hökumət qurumlarına texniki yardım daxildir. Yanvar-iyun aylarında BP və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları belə sosial investisiya layihələrinə təkcə Azərbaycanda təqribən 2,3 milyon dollar xərcləyib.

Ölkə iqtisadiyyatının güclənməsinə kömək etmək məqsədilə BP (özünün əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından) Azərbaycanın hər yerində yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən sosial investisiya layihələrini də davam etdirəcək.

Yeri gəlmişkən, Azərbaycan iqtisadiyyatında mühüm rol oynayan Cənubi Qafqaz Boru Kəməri ilə bağlı bir göstəricini də diqqətə çatdırmaq istərdik. Hesabat dövründə bu kəmərin gündəlik orta ötürücülük gücü təqribən 21 milyon kubmetr qaz olub.

"BP Azerbaijan" şirkətindən verilən məlumata görə, hesabat dövründə həmin kəmərlə bağlı fəaliyyətlərə təqribən 18 milyon dollar əməliyyat və 241 milyon dollar isə əsaslı xərclər sərf edilib.

2006-cı ilin sonlarında istismara verilən boru kəməri hazırda Azərbaycan, Gürcüstan və Türkiyəyə "Şahdəniz" qazını çatdırır. Kəmərin iki operatoru var: BP şirkəti Cənubi Qafqaz Boru Kəməri obyektlərinin tikintisi və istismarı üzrə məsul texniki operatoru, SOCAR isə həmin kəmərin biznes icrası üzrə məsul kommersiya operatorudur.

"Şahdəniz Bravo" platformasından hasilat üçün 14 quyu qazılıb. "BP Azerbaijan" şirkətindən bu barədə verilən məlumatda bildirilir ki, cari ilin ikinci rübündə "Şahdəniz Alfa" platformasında "SDA11" quyusunda qazma işləri bitib və hazırda bu quyuda tamamlanma işləri həyata keçirilir.

İstiqlal qazma qurğusu "SDD04" quyusunu tamamlayıb və sınaqdan keçirib, daha sonra isə "SDG04" quyusunda tamamlama işlərinə başlayıb. "Maersk Explorer" qurğusu "SDH02" quyusunun aşağı hissələrində qazma əməliyyatlarını davam etdirib.

Bu iki qurğu "Şahdəniz Bravo" platformasından hasilat üçün artıq 14 quyu qazıb. Bunlardan yatağın şimal və qərb cinahlarının hər birində 4 quyu tamamlanıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə nail olmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.





İlin birinci yarısında "Şahdəniz" yatağından 5 milyard kubmetr təbii qaz və 1,1 milyon ton (təqribən 9 milyon barel) kondensat hasil edilib.

Bu barədə "BP Azerbaijan" şirkətindən məlumatında deyilir ki, mövcud "Şahdəniz" qurğularının maksimum hasilat gücü hazırda gündəlik 32 milyon standart kubmetr və ya ildə təqribən 10,9 milyard kubmetrdir.

"Şahdəniz" yatağı Azərbaycan (SOCAR-a), Gürcüstan ("GOGC" şirkətinə) və Türkiyə ("Botaş" şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə etibarlı şəkildə qaz çatdırılmasına davam edib.

Bu ilin yanvar-iyun aylarında "Şahdəniz" üzrə fəaliyyətlərə təqribən 250 milyon dollar əməliyyat və 798 milyon dollar isə əsaslı xərclər sərf olunub. Əsaslı xərclərin böyük əksəriyyəti "Şahdəniz-2" layihəsinə aiddir.

Cari ilin iki rübü ərzində "BP Azerbaijan" şirkəti "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin də "Neft Daşları"ndakı qurğu vasitəsilə gündəlik orta hesabla 6 milyon kubmetr, ümumilikdə isə 1,1 milyard kubmetr səmt qazı təhvil verib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Bu ilin ilk 6 ayında Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə təqribən 17 milyon tondan çox (125 milyon barrel) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 158 tankerə yüklənib.

"BP Azerbaijan" şirkətinin məlumatında vurğulanır ki, 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. Həmin vaxtdan 2018-ci ilin birinci yarısının sonunadək BTC ilə ümumilikdə 399 milyon tondan çox (təxminən 2,99 milyard barrel) xam neft nəql olunub və Ceyhan limanında 3 min 916 tankerə yüklənərək dünya bazarına göndərilib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

Birinci yarımillikdə BTC üzrə əməliyyat xərclərinə təqribən 61 milyon dollar, əsaslı xərclərə isə 13 milyon dollar sərf edilib.

İki rüb ərzində "Azəri-Çıraq-Günəşli"də hasilat 108 milyon barrel olub. Bu ilin yanvar-iyun aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan hasilat 108 milyon barrel, yəni 15 milyon ton təşkil edib.

Hesabat dövründə AÇG-dən sabit hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən ümumi hasilat – "Çıraq" (49 min), "Mərkəzi Azəri" (158 min), "Qərbi Azəri" (127 min), "Şərqi Azəri" (96 min), "Dərinsulu Günəşli" (107 min) və "Qərbi Çıraq" (59 min) platformalarından birlikdə gündəlik orta hesabla 596 min barrel olub.

İki rübdə AÇG-də ümumilikdə 116 neft hasilat quyusu, 53 qaz və su quyusu istismarda olub. Altı ayda blokda 6 neft quyusu və 2 su injektor quyusu qazılıb.

Hesabat dövrü ərzində AÇG layihəsinə təqribən 236 milyon dollar əməliyyat və 552 milyon dollar isə əsaslı məsrəflər xərclənib.

Xatırladaq ki, ötən il sentyabrın 14-də Azərbaycan hökuməti və SOCAR, beynəlxalq tərəfdaşlar şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişi imzalayıblar. Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həmin il oktyabrın 31-də ratifikasiya olunub.

AÇG üzrə Hasilatın Pay Bölgüsü haqqında sazişin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

Bu ilin yanvar-iyun aylarında Səngəçal terminalı üçüncü tərəf həcmləri də daxil olmaqla 141 milyon barreldən çox neft və kondensat, o cümlədən 124 milyon barrel Bakı-Tbilisi-Ceyhanla (BTC), təxminən 16 milyon barrel Qərb İxrac Boru Kəməri marşrutu (QİBK) və təqribən 1 milyon barrel ayrıca kondensat ixrac kəməri vasitəsilə ixrac edib.

Ötən altı ay ərzində terminaldan, həmçinin gündəlik orta hesabla 27 milyon standart kubmetr (təqribən 963 milyon standart kubfut) "Şahdəniz" qazı ixrac olunub.

Hesabat dövründə AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barrel neft və "Şahdəniz" qazı üçün təqribən 32 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 50 milyon standart kubmetr təşkil edir.

Qaz Səngəçal terminalından əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın qaz emalı obyektlərini "Azəriqaz" İstehsalat Birliyinin qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus qaz kəmərilə ixrac olunur.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Regionların sosial-iqtisadi inkişafı daim dövlətin diqqət mərkəzindədir



(əvvəli 1-ci səhifədə)

Regionların sosial-iqtisadi inkişafının perspektivi haqqında danışan Prezident bildirir ki, biz hazırda yeni layihələr üzərində işləyirik. Keçən il 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkilmişdir. Bu il də hədəf 100 min hektardır. Beləliklə, biz suvarılmayan torpaqlara həyat gətiririk, su gətiririk, fermerlərə, sahibkarlara şərait yaradırıq və kənd təsərrüfatımızın inkişafına nail oluruq.

Bu gün regionda Rusiya, Türkiyə, Azərbaycan və Gürcüstan kimi turizm ölkələri daha çox əcnəbi turistin cəlb edilməsi məqsədilə xüsusi proqramlar üzərində işləyirlər. Əcnəbi mütəxəssislər etiraf edirlər ki, bu məsələdə Azərbaycanın səyləri daha çox səmərə verir. Çünki Azərbaycanı həqiqətən turizm ölkəsinə çevirməyi hədəf kimi götürən Prezident İlham Əliyev bu məqsədlə ölkənin bütün infrastrukturunun, o cümlədən avtomobil yollarının müasirləşdirilməsinə nail olub. Prezidentin fikrincə, avtomobil yollarının tikintisi infrastruktur layihələri arasında önəmli yer tutan sahədir. Bu, həm iqtisadi, həm sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir. Eyni zamanda, yol olmadan bölgələr inkişaf edə bilməz, nə turizm, nə də sənaye istehsalı inkişaf edə bilər, kənd təsərrüfatının inkişafı üçün də problemlər yaranar.

Dövlət başçımız bu məsələyə münasibət bildirərkən deyir: "Hazırda kənd yollarının tikintisi geniş vüsət alıb. Biz görürük ki, harada yeni yol çəkilir, o bölgədə canlanma daha da sürətlə gedir, kənd təsərrüfatı istehsalı artır. Nəyə görə? Çünki bazarlara rahat çıxış olur. Beləliklə, yol infrastrukturu, sadəcə olaraq, sosial layihə deyil. Son 15 il ərzində 12 min 300 kilometr yol çəkilmişdir. Bu il bu rəqəm təqribən 15 min kilometrə çatacaq. Son 15 il ərzində 443 körpü tikilmişdir".

Təbii ki, səsləndirilən hər hansı fikrin təsdiqi üçün ilk növbədə faktlara istinad edilməlidir. Dövlət başçımızın dediyi kimi, faktlar göz qabağındadır. Son 15 ildə ölkə iqtisadiyyatının, regionların inkişafı üçün kifayət qədər əsas infrastruktur layihələri icra edilmişdir. Əgər biz 2004-cü ildə qəbul edilmiş birinci proqrama nəzər salsaq, görərik ki, bu 15 ildə görülən işlərin böyük hissəsi orada əks olunmamışdır. Həmin arqumenti Prezident bu şəkildə xarakterizə edir: "Çünki biz bu proqrama və ondan sonrakı ikinci və üçüncü proqramlara əlavələr etdik. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində, vətəndaşlarla təmaslar əsnasında yeni təkliflər gəldi…"

Mən burada bir faktı da xüsusilə qeyd etmək istəyirəm. Belə ki, müstəqilliyimizin ilk illərində bəzi siyasətçilərin naşılığı üzündən ölkəmiz beynəlxalq aləm üçün qapalı elan edilsə də, ulu öndər Heydər Əliyevin siyasi hakmiyyətə qayıdışından sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri ilə əməkdaşlığımız normal məcraya yönəlmişdi. Mənim yadımdadır, həmin illərdə Amerika Birləşmiş Ştatlarından Azərbaycana gəlmək istəyən dövlət rəsmiləri Bakı Aeroportunun müasir, nəhəng təyyarələri qəbul edə bilmədiyinə görə Tbilisiyə enib, oradan avtomobillə paytaxtımıza gəlmişdilər. Bəs indi vəziyyət necədir? Mütəxəssislər yazırlar ki, Heydər Əliyev adına Bakı Beynəlxalq Aeroportu postsovet məkanının ən müasir və son dərəcə yeni texnologiyalarla təchiz edilmiş hava limanlarından biridir.



İndi tələskən oxucu fikirləşəcək ki, Bakı Aeroportunun regionların sosial-iqtisadi inkişafına nə dəxli var? Məsələ ondan ibarətdir ki, dövlət başçımız regionların sosial-iqtisadi inkişafının yekunlarından danışarkən qeyd edir ki, ölkəmizdə Bakı Hava Limanından əlavə yeddi aeroport tikilmişdir. Onlardan altısı beynəlxalq aeroportdur: "Birinci proqram qəbul olunana qədər bizim bir beynəlxalq aeroportumuz var idi – Bakı aeroportu. Digər aeroportlar yerli əhəmiyyətli aeroportlar idi. Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala – altı beynəlxalq aeroport, bir də Yevlax aeroportu yenidən quruldu. Bu gün onlar fəaliyyət göstərir və beynəlxalq reyslər təşkil olunur. Bu, ölkəmizə turistlərin gəlişini şərtləndirir, insanlara rahatlıq verir. Vaxtilə bu layihələrə start verəndə bəziləri hesab edirdilər ki, bəlkə də biz əbəs yerə vəsait xərcləyirik, bunların heç bir istifadəsi olmayacaq. Həyat göstərdi ki, indi bizim beynəlxalq aeroportlarımızdan dünyanın müxtəlif yerlərinə uçuşlar təşkil edilir".

Bax, budur müasir Azərbaycan həqiqətləri. Biz fəxr edirik ki, Prezident ölkəmizi inkişaf etdirərkən bu məsələyə kompleks şəkildə yanaşıldı. Yəni paytaxtla yanaşı, bütün bölgələrin -- əyalət şəhərlərinin, rayon mərkəzlərinin və ən kiçik kəndlər də daxil olmaqla, bütün yaşayış məntəqələrinin bərabər şəkildə müasirləşdirilməsi, inkişaf etdirilməsi təmin edildi. İnanırıq ki, bu tendensiya qarşıdakı illərdə də davam etdiriləcək.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Sumqayıtda yerləşən yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə görüş keçirilib

❒ ***Avqustun 3-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Sumqayıtda yerləşən yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə görüşüb, onların yaşayış şəraiti ilə maraqlanıb.***



Komitədən AZƏRTAC-a bildiriblər ki, məcburi köçkünlər qəzalı vəziyyətə düşmüş binalarda uzun illərdir qarşılaşdıqları çətinliklər barədə danışıb, qayğı və problemlərindən söz açıblar.

Dövlət Komitəsinin sədri onları diqqətlə dinləyib, suallarını cavablandırıb, müraciətlərinə baxılacağını və mövcud qanunvericiliyə uyğun tədbirlər görüləcəyini bildirib.

Görüşdə qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən biri də məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Bu sahədə layihələrin icrasına Birinci vitse-prezident xanım Mehriban Əliyeva da böyük diqqət göstərir. Hazırda Bakıda və Sumqayıtda qəzalı binalarda, həyat üçün təhlükəli şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi barədə verilmiş tapşırığın yerinə yetirilməsi üçün ardıcıl və məqsədyönlü iş aparılır. Dövlətimizin başçısının tapşırığı əsasında Sumqayıt şəhərində və Abşeron rayonu ərazisində də məcburi köçkünlər üçün yeni yaşayış binaları inşa edilir və onların tikintisi başa çatmaq üzrədir. Sumqayıtda və şəhərin ətrafında müvəqqəti məskunlaşma yerlərində ağır şəraitdə yaşayan məcburi köçkünlərin həmin binalardakı mənzillərə köçürülməsi nəzərdə tutulub.

Komitə sədri görüşdə qaldırılmış məsələlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün müvafiq tapşırıqlar verib.

Görüşdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov iştirak edib.

# VII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları İsmayıllıda

❒ ***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə keçirilən "Bakı Prosesi 10 il: Mədəniyyətlərarası dialoqun inkişafına töhfə kimi" VII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları avqustun 3-də İsmayıllıya gəliblər.***



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Yay Məktəbinin iştirakçıları Heydər Əliyev Mərkəzində BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Uilyam Gil və rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqovla görüşüblər.

Qeyd edək ki, Beynəlxalq Multikulturalizm Qış və Yay məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 19, Azərbaycanın isə 38 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Görüşdə akademik Kamal Abdullayev çıxış edərək Azərbaycanın qədim və zəngin tarixə, multikulturalizm ənənələrinə malik bir ölkə olduğunu, bu gün multikulturalizmin dövlət siyasətinə çevrildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan xalqı sülhsevərdir və ölkəmizdə çoxlu azsaylı xalqlar dostluq şəraitində yaşayır.

Dünya şöhrətli Azərbaycan şairi Məhəmməd Füzulidən söz açan natiq çıxışında bu bəşəri mütəfəkkirin Allaha müraciətini sitat gətirib. M.Füzuli yazıb: "Sən mənə elə bir imkan ver ki, mən bütün dünya insanlarının qəmini özüm çəkim". Bu, multikultural təfəkkürə malik bir Azərbaycan şairinin sözləridir.

ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Uilyam Gil çıxış edərək vurğulayıb ki, Azərbaycan bir sıra etnik azlıqların azad yaşadıqları ölkədir. ABŞ-da da etnik qruplar vardır, lakin onlar miqrant kimi gəliblər. Azərbaycandakı multikulturalizm dəyərlərinin öyrənilməsinin xarici ölkə gəncləri üçün faydalı olduğunu deyən Uilyam Gil multikulturalizmin insanları bir araya gətirən dəyər olduğunu diqqətə çatdırıb.

Sonra Yay Məktəbinin iştirakçıları, o cümlədən portuqaliyalı Joao Mestre, indoneziyalı İmas Fuciate, fələstinli Farah Erekat öz təəssüratlarını bölüşüb, Azərbaycanda multikultural dəyərlərin bugünkü dünyamız üçün nümunə olduğunu bildiriblər.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov 10-dan çox millətin yaşadığı İsmayıllıda insanların bir-biri ilə mehriban və qarşılıqlı hörmət şəraitində birgə həyat sürdüklərini diqqətə çatdırıb.

Sonda Yay Məktəbinin iştirakçıları malakanların yaşadıqları İvanovka kəndində olub, folklor qruplarının çıxışlarını dinləyiblər.

# Məlahət İBRAHİMQIZI: Sosialyönümlü layihələrin icrası dövlət siyasətinin prioritetidir

***Xəbər verildiyi kimi, Bakı şəhərinin Lökbatan qəsəbəsində yeni inşa edilmiş yaşayış kompleksində Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 35 mənzil təqdim olunmuşdur. Bununla yanaşı, ərazi bütövlüyümüz uğrunda sağlamlıqlarını itirmiş əlillərə və şəhid ailələrinə, həmçinin İkinci Dünya müharibəsi və Çernobıl əlillərinə də ümumilikdə 136 minik maşını da verilmişdir.***

Son illər respublikamızda sosialyönümlü layihələrin icrası geniş vüsət almış, əlillərin, şəhid və aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

**Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı** ölkəmizdə sosialyönümlü layihələrin icrasının bundan sonra da davam etdiriləcəyini bildirdi. Dedi ki, bu günlərdə Lökbatan qəsəbəsində Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə mənzil və minik maşınlarının hədiyyə edilməsi birinci hal deyil. Onun sözlərinə görə, bu xeyirxah əməlin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və möhtərəm Prezidentimiz İlham Əliyev, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir: "Ümumiyyətlə, ölkəmizdə sosial sahədə reallaşdırılan davamlı tədbirlər son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu gün ölkəmizin sosial infrastrukturunun yaxşılaşdırılması sahəsində mühüm irəliləyişlərə nail olunmuşdur. Sosial infrastruktur layihələri paytaxtı və regionları əhatə etməklə yanaşı, respublikamızın bütün bölgələrində həyata keçirilməkdədir. Dövlət başçısının rəhbərliyilə həyata keçirilən bu layihələr əhalinin maddi-rifah halının yüksəlməsinə müsbət təsir göstərmişdir".

M.İbrahimqızı dedi ki, şəhid ailələrinə və ərazi bütövlüyümüzün təmin olunması uğrunda sağlamlıqlarını itirənlərə, həmçinin aztəminatlı ailələrə son iyirmi il ərzində 5500-dən çox fərdi ev və mənzil verilmişdir. Həmin qəbildən olan insanlara 6 mindən çox minik maşını hədiyyə edilmişdir: "Bütün bunlar dövlətin şəhid ailələrinə, əlillərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu qayğı gənc nəslin hərbi vətənpərvərlik ruhunda yetişməsində böyük rol oynayır. Gənclər və onların valideynləri görürlər ki, Vətənimizin müdafiəsi uğrunda canlarını qurban verənlər heç vaxt unudulmurlar".

Sosial layihələrin icrasının uğurla həyata keçirildiyini vurğulayan M. İbrahimqızı müharibədən, işğaldan əziyyət çəkən, doğma yurd-yuvalarından didərgin salınmış soydaşlarımızın həyat tərzinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən də söhbət açdı. Dedi ki, bu qəbildən olan insanlar daim dövlətin diqqət mərkəzində saxlanılır və onlar qayğı ilə əhatə olunurlar: " İsti ocaqlarından didərgin



salınmış soydaşlarımız üçün son illərdə 100-ə yaxın qəsəbə salınıb. Bu qəsəbələr hər cür infrastruktura malikdir. İşıqlı, asfalt küçələr, məktəb, uşaq bağçası, mədəniyyət evləri sakinlərin ixtiyarına verilib. Bu vaxta qədər üç yüz minə yaxın köçkün evlərlə, mənzillərlə təmin edilib. Bu siyasət indi də davam etdirilir. Bu il Qaradağ rayonunun Qobu qəsəbəsində min mənzillik yeni salınmış köçkün qəsəbəsi sosialyönümlü layihələrin davam etdirildiyindən xəbər verir. Həmin qəsəbədə də bütün infrastruktur öz həllini tapıb. İlin sonuna qədər isə 4 min köçkün ailəsinin, təqribən 20 min insanın yeni mənzillərlə təmin edilməsi nəzərdə tutulub. Bütün bunlar aztəminatlı ailələrə, əlillərə, şəhid ailələrinə və məcburi köçkünlərə göstərilən qayğının dövlət siyasətinin prioritetini təşkil etməsindən xəbər verir".

M.İbrahimqızı bildirdi ki, şəhid ailələrinə, əlillərə və məcburi köçkünlərə diqqət və qayğı Heydər Əliyev Fondunun, şəxsən fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ən çox diqqət yetirdiyi sahələrdəndir: "Xatırlayırsınızsa, 2017-ci il martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilmişdi. Mehriban xanım həmin müşavirədə demişdi ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir. Müstəqilliyimiz bərpa olunandan sonra ən ağır dövrlərdə, ölkəmizin inkişafının bütün mərhələlərində bu sahəyə dövlət tərəfindən böyük qayğı göstərilib. Amma, eyni zamanda, əfsuslar olsun ki, bu sahədə hələ də problemlər var. Ona görə də bizim qarşımızda məqsəd durur ki, çox qısa zamanda bu problemləri aradan qaldıraq və yararsız vəziyyətdə olan bütün təhlükəli binalarda yaşayan soydaşlarımızı yeni mənzillərlə təmin edək. Verilən vədlər əməli işlərdə özünü doğrultdu və bu gün də həmin xeyirxah missiya uğurla davam etdirilir. Bütün bunlar deməyə əsas verir ki, sosialyönümlü layihələrin icrası bundan sonra da uğurla davam etdiriləcək".

*Söhbəti qələmə aldı:*
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır



***Prezident İlham Əliyev Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə hər zaman diqqət və qayğı göstərir, onların sosial şəraiti ilə daim maraqlanır. Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində bu kateqoriyadan olan insanlara avqustun 1-də mənzillərin və avtomobillərin verilməsi mərasimində də bunun bir daha şahidi olduq. Onu da qeyd edim ki, dünyanın heç bir yerində əlillərə, şəhid ailələrinə belə həssaslıq göstərilmir.***

Bu, 1997-ci ildən başlayaraq indiyədək davam edir. Həmin vaxtdan etibarən ulu öndər Heydər Əliyevin diqqəti sayəsində respublikanın şəhər və rayon mərkəzlərində çoxmərtəbəli yaşayış binaları, kənd yerlərində isə fərdi yaşayış evləri inşa olunaraq mənzil növbəsində dayanan Qarabağ müharibəsi əlilləri, həmçinin 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərin və şəhid ailələrinin istifadəsinə verilir. Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və bu kateqoriyadan olan insanlar daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Əlil insanların özlərinin işləyib vəsait toplayaraq belə evlər, maşınlar alması qeyri-mümkündür. Bunu nəzərə alan dövlət bu sahədə böyük işlər görür, təmənnasız olaraq bu xidməti öz üzərinə götürərək, şəhid ailələrini mənzillə təmin edir.

Qaradağ rayonunun Lökbatan qəsəbəsində mənzillərin və avtomobillərin Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə verilməsi, həm də Azərbaycan dövlətinin güclü sosial dövlət olduğunu təsdiqləyir. Mən bu barədə dəfələrlə fikirlərimi bölüşmüşəm, bir daha demək istəyirəm ki, dövlətimiz sosial dövlətdir. Sosial dövlət isə o dövlətdir ki, insanlara böyük diqqət göstərilir və siyasətinin mərkəzində insan amili dayanır. Bu gün müstəqil Azərbaycanda sosial dövlət anlayışı tam şəkildə təmin edilir.

Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi digər sosial qruplar kimi, əlillərin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Əlil şəxslərlə bağlı qanunvericilik son illərdə təkmilləşdirilib, bu çərçivədə çox sayda hüquqi-normativ akt qəbul edilib. Belə şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Prezident İlham Əliyev tərəfindən imzalanan müvafiq fərman və sərəncamlara əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği hər il artırılır. Dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət, texniki-bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Dövlətin əlil vətəndaşlara qayğısı çərçivəsində yeni reabilitasiya mərkəzlərinin tikintisi də həyata keçirilir.

Bu gün Azərbaycan Ordusu çox güclü bir orduya çevrilib. Həm şəxsi heyətin döyüş hazırlığının, təchizatının yaxşılaşması, həm döyüş texnikalarının, silah-sursatın günü-gündən yenilənməsi, həm də Ali Baş Komandanın Silahlı Qüvvələrə ayırdığı diqqət bunu deməyə əsas verir. Xalqımız bunu açıq şəkildə görür və inanır ki, Azərbaycan Ordusu istənilən vaxt işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Əgər Ali Baş Komandan döyüşə başlamaq əmri verərsə, hamı bir nəfər kimi, vahid amal uğrunda o tapşırığı yerinə yetirməyə hər an hazırdır.

***Azər VERDİYEV,***
***Qlobal Araşdırmalar Liqası İctimai Birliyinin sədri, politoloq***



***Azərbaycan və Türkiyə hökumətləri arasında hərbi-mülki heyətin sosial və mədəni səfərlərinin təşkilinin təmin olunması ilə bağlı razılığa əsasən, qardaş ölkənin bir qrup hərbi qulluqçusu və onların ailə üzvləri ölkəmizə səfərə gəliblər.***

# Türkiyəli hərbi qulluqçular ailə üzvləri ilə birlikdə Azərbaycanda səfərdədirlər

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçuların, mülki işçilərin və onların ailə üzvlərinin qarşılıqlı ziyarətlərinin təşkili çərçivəsində həyata keçirilən səfər iki ölkə arasında mövcud olan dostluğun, əməkdaşlığın genişlənməsinə və əlaqələrin möhkəmləndirilməsinə xidmət edir.

Proqrama uyğun olaraq, qonaqların Bakı, Gəncə, Şəmkir və Şəki şəhərlərinə ekskursiyası təşkil edilib. Türkiyəli heyət ölkəmizin qədim tarixi, xalqımızın zəngin mədəni irsi, adət-ənənəsi ilə yaxından tanış olub, milli mətbəximizə məxsus yemək və şirniyyatlardan dadıblar.

# Zabrat istiqamətində yolda yaranan sıxlıq aradan qaldırılıb

***Bakı Nəqliyyat Agentliyi tıxac və digər problemlərin həllini nəzərdə tutan layihələrin icrasını davam etdirir.***

Şəhərin əsas nəqliyyat yükünü özündə cəmləşdirən yollarda hərəkətə mane olan problemlərin aradan qaldırılması işləri görülür. Bu çərçivədə daha bir yolda – Zabrat şosesinin Heydər Əliyev prospekti ilə kəsişən hissəsində (Sabunçu yol qovşağı) yerüstü piyada keçidinin yaxınlığında nəqliyyat şəraitinin yaxşılaşdırılmasına dair işlər yekunlaşıb. Ərazidə aparılan müfəssəl təhlillərə əsasən, hazırlanan plana uyğun olaraq, yerüstü piyada keçidinin yaxınlığında yolun hər iki istiqamətində yerləşən dayanacaq məntəqələrinin yeri dəyişdirilib. Əvvəllər mövcud olan dayanacaq məntəqələrindən bir qədər irəlidə yeni tipli dayanacaq məntəqələri təşkil edilib, pavilyonlar qoyulub, müvafiq nişanlanma işləri görülüb. Bununla yanaşı, yerüstü keçidin hər iki hissəsində səki boyunca dəmir məhəccərlər vurulub ki, bu da piyadaların yolu pərakəndə halda keçməsinin qarşısını almaq məqsədi daşıyır. Bu barədə agentlikdən məlumat verilib.




Xatırladaq ki, Sabunçu-Zabrat yolunun Heydər Əliyev prospekti ilə kəsişməsində piyada keçidinin qarşısında günün pik saatlarında yolda nəqliyyatın hərəkətində sıxlıq müşahidə edilirdi. Qanunsuz taksi fəaliyyəti ilə məşğul olan sürücülərin avtomobilinin keçidin yanındakı dayanacaq məntəqəsini zəbt etməsi ərazidə sıxlığın yaranmasına səbəb olurdu. Pik saatlarda Zabrat istiqamətində də yolda yaranan sıxlıq Sabunçu yol qovşağında hərəkətin intensivliyinə ciddi maneə yaradırdı. Analoji vəziyyət Heydər Əliyev prospekti istiqamətində də müşahidə edilirdi. Dayanacaq məntəqəsi zəbt edildiyindən sərnişinlər avtobusa yolun hərəkət hissəsində minib-düşürdülər ki, bu da onların təhlükəsizliyi baxımından çətinlik yaradırdı. Qeyd edildiyi kimi, görülmüş işlər nəticəsində nəqliyyat axınına maneçilik törədən amillər artıq aradan qaldırılıb.

Məlumat üçün bildirək ki, Sabunçu-Zabrat yolunun Heydər Əliyev prospekti ilə kəsişməsində yerləşən dayanacaq məntəqələrinə gün ərzində 21 marşrut xətti üzrə avtobuslar daxil olur.

***Ü.VAHİDQIZI,***
***"Xalq qəzeti"***

# Azərbaycan Prezidenti şəhid ailələrinin dayağıdır

***Son illər əhalinin sosial müdafiəsi ilə bağlı görülən işlər, aparılan islahatlar öz tutumu ilə xüsusi seçilir. Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verənlər və əlil olanlar daim dövlətin diqqət mərkəzində saxlanılır, onların və ailələrinin problemləri aradan qaldırılır. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin təqdimatı mərasimində dövlətimizin başçısına məlumat verdi ki, nazirlik ümumilikdə 35 mənzili satın alıb. Bu mənzillərdən 23-ü Qarabağ müharibəsi əlillərinə, 12-si isə şəhid ailələrinə hədiyyə verilib. Mənzil hədiyyə alanlardan biri – Həvva Abbasova da sevinc hisslərini gizlətmədi.***



– Azərbaycan ərazilərinin təhlükədə olduğu o illərdə həyat yoldaşım Qurbanəli Dadaşov torpaqlarımızın qorunması naminə canını qurban verib. Beş uşaqla tək qalmışam. Həyat yoldaşım 48 yaşında könüllü olaraq, Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. O, canını Vətənə qurban demiş, uğrunda ölərsə, özünü xoşbəxt sayacağını bildirmişdi. Qurbanəli hələ 1990-cı ildə, qanlı 20 Yanvar gecəsində də əliyalın tank qabağına çıxanların arasında olmuşdu. Və həyatlarını itirən gəncləri görüb özünün sağ qalmasına təəssüflənirdi.

Qurbanəlinin bacısı oğlu Sərdar Əhmədov 24 yaşında Ağdamda şəhid olandan sonra xalası cəbhəyə vuruşmağa getdi. Bunu eşidən həyat yoldaşım da bir an belə düşünmədən könüllülərə qoşuldu. "Vətən, torpaq sevgisi hər şeydən üstündür", – deyərək, bu amal uğrunda Füzulinin Seyidəhmədli kəndində şəhid oldu.

Dövlətimiz bütün şəhid ailələrinə həmişə diqqət, qayğı göstərib. Mənzillərin təqdimatında cənab Prezident İlham Əliyev dedi: "Son iyirmi il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil verilmişdir... Bu, dövlətin sizə olan qayğısının təzahürüdür və bu siyasət bu gün də davam etdirilir. Dediyim kimi, bu gün 35 mənzil verilir. Ancaq ilin sonuna qədər nəzərdə tutulan rəqəm əlavə 170 mənzil və fərdi evdir. Bununla belə, nəzərə alsaq ki, hələ də növbədə kifayət qədər insan var, – təqribən 4 minə yaxın insan növbədədir, – mən əlavə vəsait ayıraraq bu il minimum daha 300 mənzilin alınması ilə bağlı qərar qəbul edəcəyəm".

Şəhid ailələrinin, eləcə də Böyük Vətən müharibəsi, Qarabağ döyüşləri iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi ölkə başçısının, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqətindən heç vaxt kənarda qalmayıb. İldən-ilə ailəmizə verilən müavinətin artırılması artıq ənənə halını alıb.

Mənzilin açarı mənə təqdim ediləndə sevincimdən nə edəcəyimi bilmirdim. Prezident İlham Əliyevi bağrıma basdım. Allah onu, ailəsini qorusun. Cənab Prezident də, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da biz şəhid ailələrinin dayağıdır.

*Qələmə aldı:*
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# Sərnişindaşımada gediş haqqının artırılması bu sahədə iqtisadi layihələrin reallaşmasına müsbət təsir göstərəcək

***Tarif Şurası bugünlərdə keçirilmiş iclasında nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edib. Bununla bağlı bir məqamı qeyd etmək istərdim. Bu da metroda qiymət artımı ilə bağlıdır. Sözün düzü, bu, mənim üçün gözlənilməz olmadı. Çünki "Bakı Metropoliteni" dotasiya ilə işləyən bir qurumdur.***



Dövlət büdcəsindən bu sahəyə hər il müəyyən həcmdə vəsait ayrılır. Yeni metro stansiyalarının tikilməsi, təzə vaqonların alınıb gətirilməsi də əsasən bunun hesabına reallaşır. Metroda qiymət artımı isə heç şübhəsiz ki, bu sahədə insanlara göstərilən xidmətin səviyyəsinin daha da yüksəldilməsinə, iqtisadi layihələrin reallaşmasına və metropoliten işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşmasına müsbət təsir göstərəcək.

Xatırladım ki, respublikamızda metroda xidmət haqqının aşağı olması bu sistemdə müasirləşdirməni çətinləşdirir, eyni zamanda, dövlət büdcəsindən bu məqsədlə ayırmaların ildən-ilə artırılması zərurətini meydana çıxarır. Belə vəziyyət isə uzun müddət davam edə bilməzdi.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmağı vacib bilirəm. Dünyanın hər yerində, o cümlədən inkişaf etmiş ölkələrdə inflyasiya prosesləri ilə mütəmadi qarşılaşılır, buna uyğun olaraq da kommunal sektorda qiymət dəyişikliyi baş verir. Azərbaycanda isə son 10 il ərzində sözügedən sahədə xidmətlərin qiyməti artmayıb. Avtobuslarda təxminən 11 il, metroda isə 9 il gediş haqqı sabit qalıb. Dünyada elə bir ölkə yoxdur ki, orada əmtəə və xidmətlərin qiyməti belə bir uzun müddət ərzində dəyişməsin.

Diqqəti başqa bir məqama da yönəltmək istərdim. Bu gün Bakı küçələrində hərəkət edən yeni avtobuslar rahatlığı ilə fərqlənir. Bu nəqliyyat vasitələri dövlətin ayırdığı dotasiya ilə respublikamıza gətirilib. İndiki qiymət artımı da bu sahədə dövlətin xərclərini azaltmağa təbii ki, öz təsirini göstərəcək. Bu mənada Tarif Şurasının yeni qərarını başa düşmək elə də çətin deyil.

Sonda qeyd edim ki, istənilən ölkədə hansısa sahədə baş verən qiymət artımı o qədər də müsbət qarşılanmır. Ancaq reallaşdırılan innovativ yeniliklər, müasir infrastrukturun yaradılması və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin daha da yüksəlməsi təbii ki, qiymət artımını şərtləndirir. Ona görə də nəqliyyatda sərnişindaşıma xidməti üzrə xərclərin artması ciddi narahatlıq doğurmamalı, narazılıq yaratmamalıdır. Kiçik təhlil apardıqda belə, yeni tariflərin ictimai nəqliyyatda sərnişindaşıma xidməti üzrə artan xərclərin qarşılanmasına, avtobus parklarının yenilənməsinə, nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılmasına və son nəticədə bu sahədə keyfiyyətli xidmət səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərəcəyi qənaəti ortaya çıxarır.

***Əhməd QURBANOV,***
***iqtisadiyyat üzrə fəlsəfə doktoru***

# Pərviz HEYDƏROV: Tarif Şurasının nəqliyyatda qiymət dəyişikliyi ilə bağlı qərarı inflyasiyaya səbəb olmayacaq

***İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun aparıcı elmi işçisi Pərviz Heydərov mətbuata açıqlamasında qeyd edib ki, nəqliyyat sektorunda yaşanan qiymət dəyişikliyi elə də böyük artım deyil.***

O deyib: Bu artım nəqliyyat sektorunun dövlət tərəfindən çəkilən müvafiq xərclərinin kompensasiyası baxımından cüzi xarakter daşıyır. Ancaq bununla yanaşı, Tarif Şurası məlum qərarı qəbul edərkən bir çox amilləri, o cümlədən, inflyasiyaya ciddi təzyiq yaranmaması baxımından çox kiçik artım olmasını nəzərə alıb. Adıçəkilən qərarın istehlak bazarında



qiymətlərə ciddi təsir göstərərək inflyasiyanı yüksəltməsi riski yoxdur.

2018-ci ilin ikinci yarısında inflyasiya səviyyəsi olduqca aşağı xarakter daşıyır. Hökumət bu il üçün inflyasiyanın 6 faizdən yuxarı olacağını proqnozlaşdırılmışdı. Bu ilin sonuna kimi birrəqəmli inflyasiya proqnozlaşdırılır. Hazırda inflyasiya səviyyəsi nəzərdə tutulandan da aşağı rəqəmdir. Nəqliyyat sektorunda qiymət dəyişikliyinin mövcud rəqəmə ciddi şəkildə təsir göstərəcəyi real görünmür və bu artımın inflyasiyanı yüksəldəcəyi gözlənilmir.

***"Xalq qəzeti"***

# Antiazərbaycan qüvvələrin bəd niyyətləri ürəklərində qalacaq

❒ ***Bu il Azərbaycan dövləti və xalqı üçün əlamətdar və qürurverici tarixi hadisəni yaşadıq. Müsəlman Şərqində ilk Demokratik Cümhuriyyətin yaradılmasının və Azərbaycan Ordusunun, polisinin 100 illiyinin təntənəli şəkildə qeyd edilməsi, bütün dünyanın şahid olduğu Bakıdakı möhtəşəm hərbi parad ölkəmizin qüdrətini və gücünü bir daha beynəlxalq aləmə nümayiş etdirdi.***



Bir vaxtlar ulu öndər Heydər Əliyev xaricə səfərlərində ölkəmizin tanıdılması üçün söhbətlər aparır, xəritədə gənc müstəqil ölkəni göstərirdisə, indi artıq Azərbaycan dünyanın nüfuzlu beynəlxalq ictimai-siyasi tədbirlərin, konfrans və simpoziumların, I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, "Eurovision" mahnı müsabiqəsi kimi möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib. Regionda həyata keçirilən TAP, TANAP kimi önəmli enerji layihələrində Azərbaycanın rolu həlledicidir.

Beynəlxalq güclər Azərbaycanın iqtisadi və siyasi qüdrətini qəbul edir və onunla hesablaşırlar. Lakin son zamanlar günü-gündən güclənən və nailiyyətlər əldə edən Azərbaycan dövlətinin nüfuzuna xələl gətirmək, cəmiyyətdəki sabit və tolerant mühiti pozmaq məqsədilə sosial şəbəkələrdə antiazərbaycançı qüvvələrin "fəallığı" diqqət çəkir. Əlbəttə, burada məqsəd və niyyət aydındır: ölkəmizdə tarixən formalaşmış multikultural və tolerant ənənələrə zərbə vurmaq, qarşıdurma yaratmaq və sabitliyi pozmağa nail olmaq. Odur ki, bu qüvvələr sosial şəbəkələrdə "virtual qəhrəmanlıq" edərək, öz bədxah niyyətlərinə nail olmağa cəhd edirlər. Ancaq unutmaq olmaz ki, indiyə kimi heç bir radikal və ekstremist yönümlü çağırış və fikirlər cəmiyyətdə dəstək görməyib. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, bu çağırışların arxasında ölkənin və dövlətin qüdrətini sarsıtmaq cəhdi, cəmiyyətdə xaos yaratmaq istəyi dayanır. Buna isə Azərbaycan xalqı heç vaxt yol verməz.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasının siyasi nüfuzunun daha da yüksəlməsi, dünya miqyasında regionun lider dövlətinə çevrilməsi xalqımızın işıqlı sabaha doğru inamla addımlaması deməkdir.

Azərbaycanın inkişaf və tərəqqisini istəməyən radikal ünsürlərin hətta din amilindən öz çirkin ambisiyaları üçün istifadə etməsi də cəmiyyətdə etirazla qarşılanır. Sülhü və insanlığı, mərhəməti təbliğ edən İslamın radikal ünsürlərin alətinə çevrilməsi qəbuledilməzdir. Antiazərbaycan qüvvələrin xaosa və qarşıdurmaya yönəlmiş çağırışlarına dövlətini və millətini sevən hər bir Azərbaycan vətəndaşı, gənci "yox!" deyir.

Dünya təcrübəsi göstərir ki, sosial ünsiyyət üçün nəzərdə tutulmuş sosial şəbəkələrdə radikal, ekstremist, zorakılıq və xaosu təbliğ edən fikirlərin yayımlanması və ondan qorunmaq məsələsi aktualdır. Əminəm ki, Azərbaycan əleyhinə canfəşanlıq edən, sosial bazası olmayan qüvvələrin niyyətləri iflasa uğrayacaq. Çünki Azərbaycan dövlətçiliyinə bağlı vətəndaşlarımız hər zaman öz dövlətinin yanındadır.

***Aydın MİRZƏZADƏ,***
***Milli Məclisin deputatı***

# *Milli Məclisin deputatı Flora QASIMOVA:* Nəqliyyatın mövcud infrastruktur xərcləri ilə müqayisədə artım elə də ciddi deyil

❒ ***Tarif (qiymət) Şurasının 2018-ci il iyulun 30-da keçirilən iclasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "Bakı Metropoliteni" QSC, Bakı Nəqliyyat Agentliyi vasitəsilə "BakuBus" MMC və sərnişindaşıma xidmətlərini həyata keçirən bir sıra subyektlərin müraciətləri nəzərə alınmaqla ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib. Qiymətlər artırılandan sonra da Azərbaycanda ictimai nəqliyyatda gediş haqqı MDB ölkələrinin əksəriyyətindən aşağı olacaq.***



**Tarif (qiymət) Şurasının qəbul etdiyi qərara münasibət bildirən Milli Məclisin deputatı Flora QASIMOVA** dedi ki, iqtisadiyyatın bütün sahələrində qiymət dəyişiklikləri həmişə əhalinin, xüsusilə də alıcı və xidmət istifadəçilərinin narazılığı ilə qarşılanır. Bu, normal haldır və hesab edirəm ki, başadüşüləndir: "Ancaq söhbət dövlət tərəfindən tənzimlənən qiymətlərdən gedirsə, demək, bunun bir əsası var. Nəzərə almaq lazımdır ki, Azərbaycanın 27 illik müstəqillik tarixi var. Bu müddət ərzində iqtisadi, siyasi və mədəni sahələrdə qazanılan uğurlar postsovet dövlətləri ilə müqayisədə çox yüksəkdir. Dünyanı maliyyə böhranı bürüdüyü illərdə, ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, sosial layihələr uğurla icra olundu, yeni iş yerləri açıldı, əmək haqları artırıldı. Ötən müddət ərzində enerji daşıyıcılarının da qiyməti artırılıb, ancaq həmin vaxt dövlətimizin başçısının göstərişi ilə sərnişindaşıma nəqliyyatı üzrə qiymətlər artırılmadı. Düz on il bu sahədə heç bir qiymət artımı müşahidə olunmadı. Nəzərə almaq lazımdır ki, hazırkı şəraitdə nəqliyyat infrastrukturu, nəqliyyatın xərcləri daha çox maliyyə vəsaiti tələb edir. Çünki respublikamızın bütün ərazisində yollar yenilənir, modernləşdirilir, müasir tələblərə cavab verən nəqliyyat vasitələri alınır. Hesab edirəm ki, bütün bunların əvəzində qiymət artımı elə də ciddi deyil".

Metropolitenə ayırdığı subsidiyanın çox cüzi bir hissəsini kompensasiya edir. Yeri gəlmişkən, son illər metro stansiyalarında aparılan yenidənqurma işləri, göz oxşayan səliqə-sahman, yeni vaqonların alınması dövlət vəsaiti hesabına başa gəlib. Bütün bunları nəzərə alsaq, sərnişindaşıma üzrə nəqliyyatda qiymətlərin artırılmasını vaxtı çatmış məsələ hesab etmək olar. Cüzi artım əhali tərəfindən də ciddi narazılıqla qarşılanmadı.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# "Sosial şəbəkələrdə şər-böhtan yayanlar qanun qarşısında cavab verməlidirlər"



❒ ***Müasir kompüter texnologiyaları ən çeşidli informasiyaların bir göz qırpımında ötürülməsi üçün geniş imkanlar açıb. İnternetin, ardınca sosial şəbəkələrin yaranması və sürətlə genişlənməsi özlüyündə müsbət haldır. Lakin prosesin pozitiv cəhətləri ilə bərabər, mənfi tərəfləri də üzə çıxmışdır.***

Belə ki, bir sıra mühafizəkar siyasi, ictimai, dini qurumlar informasiyaları manipulyasiya edir, sosial şəbəkələrin geniş təbliğat və təşviqat imkanlarından öz bəd, qərəzli niyyətləri üçün istifadə etməyə cəhd göstərirlər. Təəssüf ki, son vaxtlar belə arzuolunmaz hallar ölkəmizin informasiya məkanında da özünə yer alır.

Bu hal ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələri arasında dərin narahatlıq hissi doğurur. Bu barədə söz düşəndə "Ailələrə dəstək" İctimai Birliyinin sədri, Əməkdar müəllim Esmira Rəhimova bunları dedi:

--Dərin zəka sahibləri, mütərrəqi filosoflar haqlı olaraq hesab ediblər ki, ictimai məzmun daşıyan hər bir söz, fikir, ideya cəmiyyətin inkişafı və tərəqqisinə xidmət etməlidir. İnternet yarananda buna çox sevinmişdim. Fikirləşirdim ki, internetin, sosial şəbəkələrin az qala hüdudsuz görünən imkanlarından bəhrələnib bəşəri ideyaları – sülhü, dostluğu, humanizmi təbliğ etmək olar! Bir də ümid edirdim ki, biz internetin, sosial şəbəkələrin vasitəsilə xalqımızın Qarabağ dərdindən söz açaraq, haqqın, ədalətin kimin tərəfində olmasını bütün dünyaya çatdırmağa nail ola bilərik.

Amma, indi, çox vaxt bunun əksini görürəm. Hətta "sapı özümüzdən olan baltalar" var ki, sosial şəbəkələrdə ölkəmizə, dövlətimizə hər cür şər-böhtan yağdırırlar. Bu qara fikirli insanlar sözün məsuliyyətini başa düşmürlər. Əlbəttə, bunlar bütün ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş bir ziyalı xanım kimi məni də çox narahat edir.

Müstəqil Azərbaycan dövləti gəncdir. Bizim uğurlarımızı həzm edə bilməyən qüvvələr var. Hesab edirəm ki, sosial şəbəkələrdə şər-böhtan yayanlar öz hərəkətlərinə görə qanun qarşısında cavab verməlidirlər.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI, "Xalq qəzeti"***

# Liberal dünya nizamı: böhranın səbəbləri və "qapalı dairə" sindromu

❒ ***Hazırda müxtəlif ölkələrin analitik dairələri qlobal səviyyədə nizamın təmin edilməsi ilə əlaqədar narahatlıq ifadə edən təhlillər aparır və proqnozlar verirlər. Tanınmış ekspertlərin irəli sürdüyü tezislər sırasında maraqlı olanları da var. Hətta yaranmış qlobal geosiyasi böhranı müasir elmi yanaşma əsasında təhlil etmək cəhdləri də mövcuddur. Lakin bu kimi yanaşmaların nə dərəcədə obyektiv və ədalətli olması haqqında konkret fikir bildirmək çətindir. Bu bağlılıqda nüfuzlu amerikan politoloqu Riçard Haasın bir analizi üzərində dayanmaq maraqlı olardı. Müəllif müasir dünya nizamının bir sıra cəhətlərini təhlil edərək, onun əsas özəlliklərini ifadə etməyə çalışıb. Dərin analiz əsasında maraqlı tezislər irəli sürüb. Ancaq məsələyə daha geniş kontekstdə və ədalət prinsipi baxımından yanaşdıqda, meydana bir sıra suallar çıxır. Onlarla bağlı müəyyən təhlillər aparmağa ehtiyac duyulur.***

## Liberal dünya nizamının böhranı: risklərlə üz-üzə

Qlobal dünya nizamı məsələsi mütəxəssislərin diqqət mərkəzindədir. Hazırda özünü göstərməkdə olan geosiyasi ziddiyyətlər, böyük dövlətlər arasındakı ixtilaflar, hərbi, ideoloji, informasiya və diplomatik savaşlar tədqiqatçılar qarşısında bir sıra suallar qaldırıb. Son zamanlar Qərblə Rusiya arasında vüsət almış qarşılıqlı ittihamlar dalğası da yeni təhlükələrdən xəbər verir. KİV artıq yazır ki, yeni "soyuq müharibə"yə rəsmən start verilib.

Belə gərginliklər qlobal geosiyasi düzənə təbii ki, təsir edir. Lakin bu, indi meydana gələn mənzərə deyil. Tədqiqatçılar İkinci Dünya müharibəsindən sonra yaranmış dünya nizamının təkamül dinamikasına ümumi yanaşma əsasında həqiqi mənada düşündürücü nəticələrə gəlirlər. Onlardan biri də amerikalı mütəxəssis Riçard Haasdır. O, Xarici Əlaqələr Şurasının prezidentidir, 2001-2003-cü illərdə ABŞ Dövlət Departamentinin siyasi planlaşdırma üzrə direktoru olub, prezident Corc Buşun Şimali İrlandiya üzrə xüsusi nümayəndəsi və Əfqanıstanın gələcəyi üzrə koordinator kimi fəaliyyət göstərib. R.Haas "Dünya nizamsızlıq içində: amerikan xarici siyasəti və köhnə düzənin böhranı" adlı kitabın müəllifidir.

Yəni R.Haas qlobal geosiyasətə həm tədqiqatçı, həm də praktiki fəaliyyət aspektlərində aidiyyəti olan şəxsdir. Onun "Project Syndicate" qəzetlər sindikatının portalında "Liberal dünya nizamı. R.İ.P." adlı məqaləsi dərc olunub (bax: Richard N. Haass. Liberal World Order, R.I.P. / Project-syndicate.org, 21 mart 2018).

Burada müəllif iddia edir ki, liberal dünya nizamı böhran içindədir, yeni model isə formalaşmayıb. Bütövlükdə bəşəriyyət qeyri-müəyyənliklə və risklərlə üz-üzədir. Maraqlıdır ki, bu mənzərənin yaranmasında R.Haas məsuliyyəti böyük dövlətlərin, ilk növbədə isə ABŞ-ın üzərinə qoyur.

Onun bu qənaətinin nə dərəcədə doğru olması ilə bağlı fikir bildirmək istəməzdik. Ancaq dünyanın geosiyasi nizamının hazırkı durumu aspektində təhlil aparmaq maraqlı olardı. Bu baxımdan daha bir maraqlı fikir ondan ibarətdir ki, R.Haasa görə, "sönməkdə olan" dünya nizamı nə liberal, nə ümumbəşəri, nə də nizamlıdır (bax: əvvəlki mənbəyə). Konkret desək, ümumiyyətlə, nizam deyil. O, əvvəllər malik olduğu əksər əlamətlərini itirməkdədir. Bir çox əlamətlərindən isə artıq məhrum olub.

Məsələ ondan ibarətdir ki, İkinci Dünya müharibəsindən sonra ABŞ və Böyük Britaniyanın öncüllüyü ilə yaradılan dünya nizamında başlıca məqsəd iki cahan savaşına gətirib çıxaran şərtlərin bir daha meydana gəlməməsindən ibarət idi. Bu məqsədlə bir araya gələn demokratik ölkələr qanunun aliliyinə, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörməti təmin edən beynəlxalq münasibətlər sisteminin yaradılması üzərində çalışdılar. İnsan haqlarını da qorumaq lazım gəlirdi.

Əsas məqamlardan biri bundan ibarət idi ki, bütün bu prinsipləri planetar miqyasda tətbiq etmək lazım gəlirdi. Həm də bu prosesdə iştirak hamı üçün açıq və könüllü idi. Bunlardan başqa, sülhü təmin etmək üçün BMT, iqtisadi inkişafla bağlı Ümumdünya Bankı, ticarət və sərmayə üçün Beynəlxalq Valyuta Fondu və təsisat formalaşdırıldı. Həmin təsisat sonradan Ümumdünya Ticarət Təşkilatına çevrildi.

Göründüyü kimi, müxtəlif sahələr üzrə dünya dövlətlərini birləşdirməli olan təşkilatlar qlobal miqyasda hüquqa, qanunun aliliyinə, beynəlxalq normalara və ədalətə əsaslanan prinsiplər üzrə əməkdaşlığın inkişafına xidmət etməlidirlər. Bunlar dünyanın liberal nizamını təmin edəcək real mexanizmlərdir. Təbii ki, bu halda xüsusi missiyası əvvəlcədən müəyyən olunan həmin beynəlxalq təşkilatlar öz funksiyalarını lazımi səviyyədə yerinə yetirmədikdə, bütün dünyada problemlər meydana gəlməlidir. Hazırkı şəraitdə bu halı müşahidə edirik.

## Liderlik və ədalət: tarazlıq mövcuddurmu?

Riçard Haas vurğulayır ki, bütün bunlar ABŞ-ın iqtisadi və hərbi qüdrətinə dayanır, Avropa və Asiyada yaradılmış alyanslar şəbəkəsinə əsaslanır və nüvə silahına istinad edirdi (aqressiyanı cilovlamaq üçün). Belə çıxır ki, "liberal dünya nizamı yalnız demokratik ölkələrin ideallarına deyil, həm də "sərt güc"ə istinad edirdi".

Mövcud fikirlərə görə, liberal dünya nizamı SSRİ-nin süqutundan və "soyuq müharibə"nin başa çatmasından sonra kəskin surətdə möhkəmləndi. Ancaq həmin hadisələrdən 25 il sonra aydın olur ki, liberal dünya nizamının da gələcəyi sual altındadır. Burada ən təhlükəlisi ondan ibarətdir ki, liberal nizamın liberalizm, universalizm və nizamın qorunması kimi üç başlıca komponenti görünməmiş qızğınlıqla dartışma hədəfinə çevrilib.

Nəticədə liberalizm geri çəkilir. Demokratik hesab edilən ölkələrdə siyasi populizm vüsət alır. Avropada isə siyasi radikalizmə meyilli partiyalar dirçəlir. "Brexit" Qərbdə siyasi elitanın öz nüfuzunu itirməkdə olmasının əlamətidir. ABŞ-da isə ölkə başçısı KİV, məhkəmə və hüquq-mühafizə orqanları üzərinə görünməmiş hücuma keçib. Avtoritar ölkələr (Rusiya, Çin) daha da avtoritar olub. Macarıstan və Polşa isə artıq özlərinin gənc demokratiyalarının taleyi ilə maraqlanmırlar.

Bunlar dünyanın bütövlüyünü pozur. Müxtəlif regional düzən, yaxud nizamsızlıq özünü göstərməyə başlayıb (məsələn, Yaxın Şərqdə). Onların hər birinin özəl xüsusiyyətləri var ki, bu da qlobal sistem yaratmaq cəhdlərini puç edir. Ticarətdə proteksionizm güclənir. Kibeməkanın tənzimlənməsi ilə bağlı çox az qaydalar qəbul edilib.

R.Haasın bunlardan sonrakı tezisləri də maraqlıdır. Əvvələn, "böyük dövlətlərin rəqabət dövrü geri qayıdır". Rusiya beynəlxalq münasibətlərin baza normalarını pozaraq Avropada silahlı güc vasitəsi ilə sərhədləri dəyişməyə çalışır. Dünya Suriya və Yəməndəki humanitar fəlakətə laqeyd yanaşdı. Kimyəvi silahların tətbiqinə qarşı BMT çox az iş gördü. Venesuelada dövlət dağılır. Bütövlükdə dünyada 100 adamdan biri ya qaçqındır, ya da öz ölkəsi daxilində məcburi köçkündür.

Müəllif bütün bunların hansı səbəblərdən və niyə məhz indi baş verməsi ilə bağlı da fikir bildirir. R.Haas hesab edir ki, populizmin vüsət almasının səbəbi əhalinin əksər qisminin gəlirlərinin azalması və iş yerlərinin itirilməsi ilə bağlıdır. İş yerləri başlıca olaraq yeni texnologiyaların tətbiqi ilə azalır. Bununla yanaşı, həmin prosesi idxalın artması və miqrantların axınının güclənməsi ilə də izah etməyə çalışırlar.

Sonra, bir çox ölkələrin liderləri millətçilikdən öz hakimiyyətlərini daha da genişləndirmək üçün aktiv istifadə edirlər. Bunların fonunda isə "qlobal institutlar yeni güc balansına və texnologiyalara adaptasiya oluna bilmədilər".

Bütün bunlarla yanaşı, R.Haas hesab edir ki, dünya liberal nizamının zəifləməsi daha çox ABŞ-da yanaşmaların dəyişməsi ilə bağlıdır. Belə ki, ABŞ Donald Trampın hakimiyyətə gəlməsi ilə Trans-Sakit okean tərəfdaşlığından (TST) çəkilməyə qərar verdi, iqlim dəyişikliyi ilə bağlı Paris sazişindən çıxdı. Vaşinqton Şimali Amerika azad ticarət zonası müqaviləsini (NAFTA) tərk etməklə hədələyir, İranla imzalanan nüvə sazişinin taleyi də aydın deyil. Son dövrlərdə isə ABŞ dövlət başçısı birtərəfli qaydada polad və alüminiuma vergini artırıb və bunu milli təhlükəsizliklə əlaqələndirib. Bu üsuldan digər dövlətlər də istifadə edə bilərlər ki, bunun da sonucu ticarət müharibəsi olar. Amerika demokratiya və insan haqlarından az danışır. Vaşinqton NATO qarşısındakı öhdəliklərini şübhə altına alıb. Ümumi deyilsə, "hər şeydən öncə Amerika" şüarı ilə liberal dünya nizamı bir-birinə uyğun görünmürlər.

Ancaq müəllif yalnız ABŞ-ı ittiham etmək məqsədini güdmür. O, Aİ, Rusiya, Çin, Hindistan və Yaponiyanı da tənqid edir. Onların etdikləri və ya etmək istədiklərinin hamısı dünyanın liberal nizamına zərbədir. Lakin R.Haasın qənaətinə görə, "...ABŞ sıradan bir ölkə deyil. Amerika liberal dünya nizamının əsas arxitektoru və başlıca dayağı idi. Həmçinin onun başlıca benefisiarı idi".

## Çıxış yolu: rəqabətə davam, yoxsa beynəlxalq hüquq?

Bütün bunlara görədir ki, Amerikanın 70 ildən çoxdur yerinə yetirdiyi roldan imtina etməsi özlüyündə dönüş nöqtəsidir. Liberal dünya nizamı indiki vəziyyətdə qala bilməz, çünki başqa ölkələrin onu saxlamaq üçün nə vəsaiti, nə də marağı var. Ümumiyyətlə götürdükdə, dünya azadlıq, çiçəklənmə, sülhün azlıq təşkil edəcəyi bir vəziyyətə doğru gedir. Həm də bu, amerikalılar da daxil olmaqla, bütün dünya xalqlarına aid olacaq.

Bizcə, tanınmış politoloqlardan birinin liberal dünya nizamı ilə bağlı mövqeyi tam aydındır. Riçard Haasın əksər arqumentləri əsaslıdır. Bütövlükdə götürdükdə, müasir mərhələdə dünya nizamının ciddi çətinliklərlə üz-üzə olduğunu inkar etmək mümkün deyil. Bunun əlamətləri də kifayət qədərdir. Deyilənlərin fonunda qlobal nizam əvəzində regional miqyasda müəyyən nizamlılığın, yaxud nizamsızlığın özünü göstərməsi də çox maraqlı dinamikadan xəbər verir. Lakin həmin məqamı müəllifin təqdim etməyə çalışdığı kimi, yalnız mənfi fonda dərk etməyi doğru saymırıq.

Məsələ ondan ibarətdir ki, çağdaş dünyamızda qloballaşma ilə yanaşı unikallaşma da özünü göstərir. Sosioloqlar bunu ümumən cəmiyyətin sosiallaşması ilə əlaqələndirirlər. Yəni, əvvəlki mərhələlərdən fərqli olaraq, müasir cəmiyyətlərdə vahid mərkəzin rolu azalır. Cəmiyyətdə siyasi sistemə daxil olmayan və ictimai məzmun kəsb edən faktorlar daha təsirli olmağa başlayır. Bu da bütövlükdə sosial-siyasi dinamikaya ciddi təsir göstərir.

Bu özəlliyin beynəlxalq münasibətlər sisteminə proyeksiyası dövlətlərarası münasibətlərin yeni dinamika və məzmun kəsb etməsi ilə xarakterizə olunur. O cümlədən ümumi nizamla yanaşı, lokal məkanlarda öz təkamül ritminə və düzən məntiqinə malik geosiyasi konfiqurasiyalar meydana gəlir. Regional nizam bundan ibarətdir.

Təbii ki, regional nizamın daha özəl məzmun kəsb etməsi, onun öz liderinin müəyyənləşdirilməsini də tələb edir. Bu baxımdan ayrı-ayrı regionlarda lokal nizamlılığın meydana gəlməsi bütövlükdə dünyanın gələcək düzəni aspektində müsbət haldır. O başqa məsələdir ki, məhz böyük dövlətlər bu prosesə pozucu təsir göstərirlər. Nədənsə, R.Haas məsələni bu kontekstdə qoymur.

O cümlədən yazıda nümunə kimi göstərilən Yaxın Şərqdəki regional nizamsızlığın birbaşa günahkarları böyük dövlətlərdir. Çünki məhz onların öz maraqlarını təmin etmək, daha çox nüfuza malik olmaq üçün apardıqları savaş bölgə ölkələrinə böyük ziyan verir. İndi də həm Qərbi, həm də Rusiyanı, deyək ki, Suriya xalqı və dövləti deyil, kimin daha çox təsir dairəsinə sahib ola biləcəyi maraqlandırır. Bu səbəbdən Yaxın Şərq dünya üçün bir nizamsızlıq nümunəsinə çevrilib.

Belə çıxır ki, regional miqyasda lokal nizamlılıq, əslində, müasir dünyanın çağırışlarına uyğundur, lakin bu prosesin böyük dövlətlər tərəfindən qiymətləndirilməsi yanlışdır. Onlar açıqca özlərindən başqa kimsənin dünyada söz sahibi olmasını arzulamırlar. Bu bağlılıqda R.Haasın regional nizamlılığa münasibəti faktiki olaraq qərbmərkəzli dünyanın yaranması fəlsəfəsindən qaynaqlanır. Həmin aspektdə də birtərəfli xarakter daşıyır.

Digər özəllik amerikalı mütəxəssisin bir kəlmə belə böyük dövlətlərin ikili standartlar və islamofobiya xarakterli siyasətinin mövcud dünya nizamına göstərdiyi təsirdən söz salmaması ilə əlaqəlidir. Problemin bu tərəfinin liberal dünya nizamının qarşılaşdığı çətinliklərlə sıx bağlılığı vardır. Çünki İslam ölkələrinə olan qərəzli münasibət birbaşa R.Haasın vurğuladığı üç məqama – liberalizmin və universalizmin zəruriliyinə və nizamın qorunmasına inamı ciddi sarsıdır. Artıq çoxlu sayda dövlətlər bu anlayışların arxasında bir sıra ölkələrin öz dəyərlərini başqalarına zorla qəbul etdirmək məqsədinin dayandığı qənaətindədirlər.

Bu cür şübhələr son illər Yaxın Şərqdən olan miqrantlara qarşı Avropada qeyri-demokratik və antiinsani münasibətin göstərilməsi ilə daha da artdı. Hətta bəzi Avropa dövlətləri, ümumiyyətlə, onların cəmiyyətə inteqrasiya ola biləcəyinin mümkünsüzlüyündən bəhs etdilər. Bunlar ictimai şüurda miqrantlarla bağlı radikal və qeyri-humanist təsəvvürlər formalaşdırmağa əlavə təkan verdi. Belə bir psixoloji mühitdə hansı liberal dünya nizamından danışmaq olar?

Təsəvvür edin, bir tərəfdən, İkinci Dünya müharibəsindən sonra dünya nizamının saxlanması üçün üç mühüm prinsipdən biri kimi dövlətlərin ərazi bütövlüyünün təmin edilməsi şərti qəbul edilir, lakin uzun illərdir ki, ərazi bütövlüyü pozulmuş Azərbaycana real dəstək verilmir. Azərbaycanın suverenliyinə olan qəsdin qarşısının alınmasında beynəlxalq hüquqda mövcud olan qaydalar rəhbər tutulmur. Hətta Azərbaycanın özünün problemi həll etməsinə müxtəlif bəhanələrlə mane olmağa cəhd edilir.

Onu da nəzərə alaq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün üç böyük dövlət – ABŞ, Fransa və Rusiya xüsusi yaradılmış tənzimləmə qrupuna həmsədr seçilib. Və onların heç biri indiyə kimi üzərlərinə düşən vəzifənin yüzdə birini belə yerinə yetirməyiblər. Bu vəziyyətdə liberalizmə, universalizmə və mövcud dünya nizamını qorumaq zərurətinə kim inanar?

Bütün bunların fonunda müəllifin əslində özünün mənfi məqam kimi vurğuladığı bir müddəanın məntiqi tələsinə düşdüyü hiss olunur. Biz, "böyük dövlətlərin rəqabəti dövrünün qayıtdığı" tezisini nəzərdə tuturuq. Dünya nizamının böhrana düşməsində bu prosesin mənfi rolunu qeyd edən R.Haas, sonra eyni səhvə yol verir. O, hesab edir ki, yaranmış vəziyyətdən çıxış yolu ABŞ-ın üzərinə düşən geosiyasi funksiyanı yerinə yetirməsi ilə bağlıdır. Amerikanın hansı funksiyasından söhbət gedir və R.Haas nəyi nəzərdə tutur?

Politoloq Amerikanı yenə də dünyanın ağası kimi görmək istəyir. Yəni, böyük dövlətlərin rəqabətini qanuni sayır, lakin onu qane etməyən bu prosesdə Vaşinqtonun əvvəlki səviyyədə uğurlu və qətiyyətli olmamasıdır. Yazının məntiqinə görə isə, çıxış yolu geosiyasi rəqabətin, silahlanma yarışının arxa plana keçməsi və BMT çərçivəsində beynəlxalq hüququ gözləməklə meydana gəlmiş problemlərin ədalətli həllinə çalışmaqdan ibarətdir. Bu vurğulanmırsa, deməli, söhbət bir supergücün dünya liderliyini davam etdirməsi zəruriliyindən gedir. Dünya təcrübəsi göstərir ki, bu yolun sonu yoxdur. Bəşəriyyət uzun illər məhz həmin yolla gedərək indiki böhrana düşüb. Dairəni qapatmaq nə zamandan çıxış yolu olub?

Əslində, bu kimi təhlillər bir sıra siyasətçilərin uzun illərdir ifadə etdiyi bir fikrin doğruluğuna inamı daha da artırır. Biz, dünya nizamının formalaşmasında və yeni məzmun kəsb etməsində əsas ağırlığın beynəlxalq təşkilatların, ilk növbədə, BMT-nin üzərinə düşməsi tezisini nəzərdə tuturuq. Hələ keçən əsrin 90-cı illərində uzaqgörən siyasətçilər bu tələbatı aydın görür, bununla bağlı açıq fikirlərini bildirirdilər (məsələn, ulu öndər Heydər Əliyev BMT-nin 49-cu sessiyasında (1994-cü il) və təşkilatın yaranmasının 50 illiyinə həsr edilmiş tədbirdə (1995-ci il) söylədiyi nitqində bu barədə birbaşa fikir bildirib).

Həmin dövrdən bu yana beynəlxalq təşkilatların fəaliyyətini daha səmərəli etmək üçün böyük dövlətlər tərəfindən heç bir real və səmərəli addım atılmayıb. BMT kimi təşkilatın qəbul etdiyi sənədlərə əməl olunmur, lakin buna qarşılıq heç bir tədbir görülmür. Məsələn, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı BMT TŞ dörd qətnamə qəbul edib, lakin onların heç biri yerinə yetirilməyib. Ermənistana qarşı bununla bağlı ən kiçik tədbir belə görülməyib.

Bundan başqa, dünyanın müxtəlif yerlərində müsəlmanlara qarşı törədilən zorakılıqlara görə kimsədən haqq-hesab soruşan yoxdur. Ayrı-ayrı ölkələrdə tez-tez uşaq, gənc, qadın demədən qətlə yetirilən dinc müsəlmanlar haqqında BMT TŞ hansı qərarları qəbul edib və yerinə yetirilməsi üçün israrçı olub? ABŞ da daxil olmaqla, böyük dövlətlərin heç biri dinc müsəlmanların həlak olmasının qarşısını almaq istiqamətində konkret addımlar atmırlar. Lakin özlərinə sərf edən məqamlarda son dərəcə fəal olurlar. Türkiyəyə qarşı terror törədənləri müdafiə edirlər, Azərbaycanda törədilmiş çoxlu sayda terror aktlarının günahkarlarının cəzalandırılması yadlarına düşmür. Budurmu liberal dünya nizamının dünyanın supergücü tərəfindən təmin edilməsi üsulu?

Deməli, liberal dünya nizamını böhrana salan hər kəsdən öncə "liberal"ların özləridir. Onlar geosiyasi ambisiyalarını təmin etmək üçün bütün demokratik dəyərləri tapdalamağa, ikili standartlara rəvac verməyə hazırdırlar. Bir-biri ilə geosiyasi rəqabətə girib, bəşəriyyətin özünü təhlükəyə atmaqdan çəkinmirlər. Və ən pisi odur ki, onlar bunu etiraf etmək əvəzinə öz günahlarını başqalarının üzərinə qoymağa çalışırlar. Ancaq təəssüf ki, bu barədə dünya analitiklərinin təhlillərində bir kəlmə belə kəsilmir! Bu isə geosiyasi təfəkkürün böhranıdır!

***Newtimes.az***

# “Azərxalça”nın İsmayıllı filialının kollektivi mükafatlandırılıb



***“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin (ASC) fəaliyyət göstərən 10 filialı arasında seçilən, əmək funksiyalarını və qarşıya qoyulan vəzifələri peşəkarlıqla yerinə yetirən, istehsalatda yüksək göstəricilər əldə edən İsmayıllı filialının işçiləri mükafatlandırılıb.***

“Azərxalça” ASC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 2-də Cəmiyyətin İsmayıllı filialında bu münasibətlə tədbir keçirilib. Tədbirdə çıxış edən Cəmiyyətin İdarə Heyətinin sədri Vidadi Muradov deyib ki, keçmişlə bu günümüz arasında körpü rolunu oynayan, min illərdir öz əhəmiyyətini itirməyən xalçaçılıq sənəti müxtəlif mədəniyyətlərin təsirinə baxmayaraq, xalqımızın həyatında öz dəyişməz yerini qoruyub saxlayıb. Xalçaçılıq sadəcə mədəniyyət tariximizin deyil, bütövlükdə ölkəmizin tarixinin öyrənilməsi üçün zəngin bir xəzinədir. Ona görə də Azərbaycan Prezidenti İlham Əliyev bu sahəyə xüsusi diqqət və qayğı göstərir, xalçaçılığın geniş şəbəkəsi yaradılır. Ölkə rəhbərinin tapşırığı ilə ilkin mərhələdə “Azərxalça”nın Füzuli (Horadiz), Ağdam (Quzanlı), Tovuz, Ağstafa, Qazax, Şəmkir, İsmayıllı, Qəbələ, Xaçmaz və Quba rayonlarında filiallarının yaradılması nəzərdə tutulmuşdu. 2016-2017-ci illərdə bu rayonlarda binaların tikintisi başa çatdırılıb, filiallar fəaliyyətə başlayıb, “Azərxalça”nın xalçaçılıq üzrə tədris-hazırlıq kursları təşkil edilib, işçi potensialının gücləndirilməsi məqsədilə müvafiq tədbirlər görülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2016-cı il noyabrın 12-də Cəmiyyətin Füzuli, 2017-ci il avqustun 20-də Şəmkir, dekabrın 7-də Quba, bu il mayın 4-də isə Xaçmaz filiallarının açılışı olub.

Diqqətə çatdırılıb ki, dövlət başçısının sərəncamları ilə hazırda ölkəmizin müxtəlif şəhər və rayonlarında daha 10 xalça emalatxanasının tikintisi davam etdirilir. Prezidentin tapşırığı ilə 2019-cu ildə də 10 xalça emalatxanasının yaradılması nəzərdə tutulub. Bununla da, “Azərxalça”nın filiallarının sayı 30-a, toxucularının sayı 4500 nəfərə çatdırılacaq.

Vidadi Muradov bildirib ki, ölkə rəhbəri tərəfindən qarşıya qoyulan mühüm vəzifələrdən biri də xalça istehsalı üçün lazım olan xammalın yerli xammal olmasıdır. Ona görə də Sumqayıt Kimya Sənaye Parkında “Azərxalça”nın Yun-əyirici Boyaq Fabriki inşa olunur. Fabrikin xammalla təmin olunması üçün Naxçıvan şəhərində, Bərdə, Qobustan, Sabirabad və Şabran rayonlarında Regional yun və boyaq bitkilərinin tədarükü mərkəzləri yaradılır.

“Cəmiyyətin filiallarında indiyədək 3 min kvadratmetrdən çox 1000-ə yaxın xalça toxunub. “Azərxalça”nın 10 xalça emalatxanasının fəaliyyəti yerinə yetirilən işin kəmiyyəti və keyfiyyəti baxımından araşdırılıb. Apardığımız təhlillər göstərdi ki, İsmayıllıdakı xalça emalatxanasının işçiləri daha çox və keyfiyyətli xalçalar toxuyublar”, – deyən İdarə Heyətinin sədri vurğulayıb ki, ona görə də bu filialın kollektivi mükafatlandırılıb. Filialın işçilərinə həm pul mükafatı verilib, həm də onlar Fəxri fərmanla təltif olunublar.

Mükafatlandırma sağlam rəqabətə səbəb olur, toxucuları daha yaxşı xalça toxumağa sövq edir. Odur ki, belə tədbirlər bundan sonra da davam etdiriləcəkdir. “Azərxalça”nın İsmayıllı filialının kollektivi mükafatlandırılarkən təkcə keyfiyyətli xalça toxunması deyil, işçilərin nizam-intizamı, ictimai həyatdakı fəallığı kimi meyarlar da nəzərə alınıb.

Qeyd olunub ki, İsmayıllı filialında Şirvan qrupuna aid xalçalar toxunur. Qədim dövlətçilik ənənələrinin təşəkkül tapdığı Şirvan bölgəsində xalçaçılıq sənəti tarixən inkişaf edib. Zəngin boyaq bitkiləri Şirvanda xalçaçılığın inkişafına müsbət təsir göstərib. Bu xalçalar dünya alimlərinin, səyyahların diqqətini cəlb edib, tarixi mənbələrdə, səyahətnamələrdə dəfələrlə yüksək sənət nümunələri kimi qeyd olunub. Bu gün dünyanın əksər nüfuzlu muzeylərində qiymətli Şirvan xalçaları saxlanılır. Peşəkar toxucular öz yaradıcılıq məharətlərini al-əlvan xalçalar üzərində həndəsi, nəbati, zoomorf ornamentlər vasitəsilə reallaşdırıblar. Şirvanda toxunan xalçalar orijinal bədii tərtibatı, rəng seçimi ilə yadda qalıb. Sevindirici haldır ki, İsmayıllıda fəaliyyət göstərən toxucular bu ənənələri davam etdirirlər, unudulmaqda olan qədim çeşnilərimizi toxuyaraq xalçaçılığın yaşadılmasına öz töhfələrini verirlər.

Vidadi Muradov filialın kollektivini təbrik edib, onlara gələcək fəaliyyətlərində daha böyük uğurlar arzulayıb.

Toxucu Nəcibə Pənahova çıxış edərək onlar üçün yaradılan şəraitə, əməklərinə verilən yüksək qiymətə görə kollektiv adından minnətdarlığını bildirib.

Təltif olunanlara “Azərxalça”nın Fəxri fərmanı təqdim edilib.

Sonda xatirə şəkli çəkdirilib, hazır xalça kəsilib. Xalçanı Cəmiyyətin İdarə Heyətinin sədri Vidadi Muradov, filialın direktoru Zenfira Ələsgərova və onu ərsəyə gətirən toxucular kəsiblər.

# Rusiyalı gənclərin bir qrupunun Azərbaycana səfəri başa çatıb



***Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) sədri Leyla Əliyevanın dəvəti ilə Rusiya Federasiyasının bir qrup dövlət qulluqçularından, qeyri-hökumət gənclər təşkilatlarının üzvlərindən və ali məktəblərin tələbələrindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri başa çatıb.***

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 24-dən 31-dək davam edən səfər çərçivəsində nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.

Sonra nümayəndə heyətinin üzvləri ilə Gənclər və İdman Nazirliyində görüş keçirilib. Görüşdə gənclər və idman nazirinin müavini İntiqam Babayev Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasəti, müxtəlif layihələr, əldə edilmiş uğurlar və beynəlxalq əlaqələr haqqında qonaqlara ətraflı məlumat verib, onların suallarını cavablandırıb.

Nümayəndə heyətinin üzvləri səfər barədə təəssüratlarını bölüşüblər. Moskva şəhərinin mədəniyyət departamentinin direktor müavini Vladimir Filippov səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirib.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Botanika bağının direktoru Aleksey Reteyum, AMOR-un idarə heyətinin üzvü Emin Hacıyev də görüşdə iştirak ediblər.

Görüşün sonunda qonaqlara Gənclər və İdman Nazirliyinin xatirə hədiyyələri təqdim olunub.

Növbəti gün Rusiya Federasiyasının gənclərdən ibarət nümayəndə heyətinin mədəniyyət nazirinin müavini Rafiq Bayramov ilə görüşü keçirilib. Görüşdə Azərbaycanda və Rusiyada keçirilən müxtəlif mədəni layihələr barədə ətraflı fikir mübadiləsi aparılıb.

Moskva Hökumətinin xarici iqtisadi və beynəlxalq əlaqələr departamentinin rəhbəri Oleq Şutenko qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini ölkələrimiz və paytaxtlarımız üçün əhəmiyyət daşıdığını vurğulayıb.

Moskva İstirahət və Turizm Agentliyinin dövlət mədəniyyət müəssisəsinin direktoru Vasili Ovçinnikov, Moskva şəhərinin mədəniyyət departamentinin əməkdaşı Artur Şukurovski, “Road to Moscow” təşkilatının inkişaf məsələləri üzrə direktoru Lyudmila Tsoy da görüşdə iştirak ediblər.

Növbəti gün nümayəndə heyətinin üzvləri Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Rusiyalı gənclər Mərkəzdəki Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Burada qonaqlara Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mənalı həyatının və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib. Heydər Əliyev Mərkəzindəki “Azərbaycan inciləri” və “Mini Azərbaycan” sərgiləri ilə tanışlıq da qonaqlarda xoş təəssürat oyadıb.

Nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyeva ilə görüşərək dəvət üçün təşəkkürlərini bildirib, səfərlə bağlı təəssüratlarını bölüşüblər.

Növbəti günlərdə qonaqlar “JARA-2018” Beynəlxalq Musiqi Festivalının açılışında iştirak ediblər. Rusiyalı gənclər, həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin daimi ekspozisiyası, eləcə də Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi, Muzey Mərkəzi, Xalça Muzeyi, İçərişəhər, o cümlədən Qız qalası, Şirvanşahlar sarayı ilə tanış olublar.



# Bosniyalılar Sumqayıt Bələdiyyəsində

***Türk Dünyası Bələdiyyələr Birliyi (TDBB) tərəfindən üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək məqsədilə başlanılan proqram çərçivəsində ölkəmizə səfər edən Bosniya və Herseqovinanın bələdiyyə təmsilçiləri və iş adamlarından ibarət nümayəndə heyəti Sumqayıt Bələdiyyəsində olub.***

Sumqayıt Bələdiyyəsində keçirilən görüşdə əlaqələrin genişlənməsi və təcrübə mübadiləsi ilə bağlı müzakirələr aparılıb.

Sumqayıt Bələdiyyəsinin sədri Sultan Əsədov qonaqları salamlayaraq son illər şəhərdə aparılan abadlıq-quruculuq işlərindən, bələdiyyənin həyata keçirdiyi layihələrdən danışıb. O, şəhərin son üç ildə tamamilə yeniləndiyini, iri infrastruktur layihələrinin həyata keçirildiyini və Sumqayıtın hətta xarici investorlar üçün də cəlbedici, müasir bir şəhərə çevrildiyini qeyd edib.

Sumqayıt Şəhər İcra Hakmiyyətinin başçısının birinci müavini Teymur Səmədov Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını vurğulayaraq bildirib ki, ölkəmiz artıq dünyada sabitlik adası kimi tanınır. Sumqayıtın da bu davamlı inkişafın bir parçası olduğunu diqqətə çatdıran T.Səmədov qeyd edib ki, son 3 ildə şəhərdə çox sayda sosial, mədəni və sənaye obyektləri fəaliyyətə başlayıb. Prezident İlham Əliyev cəmi 8 ay ərzində şəhərdə salınmış park-bulvar kompleksini “möcüzə” adlandırmışdır. Təsadüfi deyil ki, Sumqayıt Bulvarı ötən ilin iyul ayında Madriddə “İnternational Award for Excellence & Lider ship” (beynəlxalq üstünlük və liderlik) mükafatına və oktyabrda isə Parisdə “Global Trade Leaders” klubunun “Keyfiyyətə görə Beynəlxalq Avropa mükafatı”na (International Europe Award for Quality) layiq görülüb.

Qonaqlar Azərbaycanın tərəqqisindən məmnun qaldıqlarını, Sumqayıtın sürətli inkişafının onlara çox cəlbedici göründüyünü, iki ölkənin bələdiyyələrinin və sahibkarlarının işgüzar əlaqələrinin qurulmasında maraqlı olduqlarını bildiriblər.

Görüşdə Türk Dünyası Bələdiyyələr Birliyinin Baş katibi Fəxri Solak iştirak edib. Nümayəndə heyətində Bosniya və Herseqovinanın Novi Qrad Sarayeva Bələdiyyəsinin sədri Semir Efendic, Olovo Bələdiyyəsinin sədri Demal Memagic və bir qrup iş adamı təmsil olunur.

*Əli NƏCƏFXANLI, “Xalq qəzeti”*

# Azərbaycanda turizmin inkişafına xüsusi diqqət yetirilir

***Bu gün turizm bütün dünyada ən gəlirli sahələrdən birinə, sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Azərbaycanda da milli iqtisadiyyatın şaxələndirilməsi, regionların inkişafının diqqət mərkəzində saxlanılması, dövlətin turizmi qeyri-neft sektoru üzrə prioritet istiqamət elan etməsi bu sahənin yüksəlişinə, sənaye bölməsi olaraq yeni mərhələyə qədəm qoymasına müsbət təsir göstərib.***

Son illər ərzində turizmin təşkili ilə bağlı mühüm tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin bu il aprelin 20-də turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı imzaladığı sərəncama əsasən Mədəniyyət və Turizm Nazirliyinin əsasında Dövlət Turizm Agentliyi yaradılıb.

Respublikamızda turizm infrastrukturunun müasirləşdirilməsi və mövcud potensialın səmərəli şəkildə reallaşdırılması məqsədilə aparılan islahatların əsas məqsədi də ölkədə turizm mədəniyyətinin formalaşdırılması və xidmət səviyyəsinin davamlı şəkildə yüksəldilməsidir. Bununla bağlı Prezident İlham Əliyev çıxışlarının birində deyib: “Bizdə turizm potensialı şimal, şimal-qərb, cənub və qərb bölgələrində, əlbəttə ki, Bakı şəhərində inkişaf edir. Biz vaxtilə fəaliyyət göstərən, sonra köhnəlmiş turizm yerlərimizi bərpa edirik. Misal üçün, indi Naftalan öz şöhrətini özünə qaytarır. Naftalan Sovet İttifaqı zamanında bir mərkəz idi. İndi beynəlxalq mərkəzdir. Burada üç gözəl otel fəaliyyət göstərir. Mən üçünün də açılışında olmuşam. Yeni otellər tikilir və gözəl bir turizm mərkəzidir. “Qalaaltı” müalicəvi su kurortunda da artıq böyük işlər görülür… Qusar rayonunda yerləşən “Şahdağ” xizək kurortu da indi dünya səviyyəli turizm mərkəzidir. Digər bölgələrdə, cənub və qərb bölgələrində turizm imkanları genişlənir…”.



Gözəl təbiəti, rəngarəng iqlimi, tarixi və müasir memarlıq nümunələri, təbii müalicəvi yerləri, müasir infrastrukturu, zəngin və dadlı mətbəxi, ən başlıcası isə mövcud sahədə böyük turizm infrastrukturunun qurulması, brend hotellərin istifadəyə verilməsi, həyata keçirilən islahatlar, qəbul edilən dövlət proqramları, normativ hüquqi bazanın getdikcə təkmilləşdirilməsi, “ASAN viza” sisteminin reallaşdırılması nəticəsində hazırda Azərbaycan dünyada, həm də lüks turizm xidmətləri təklif edən ölkə kimi kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya geniş vüsət alıb. Son illərdə turizm potensialının təşviqi, yeni əlverişli aviareyslərin açılması, ticarət festivallarının (“shopping festival”) keçirilməsi, o cümlədən, digər mühüm məsələlərin də öz həllini tapması əcnəbi turistlərin marağına səbəb olub.

Azərbaycanda turizmin mövsümi xarakter daşımasının aradan qaldırılması ilə bağlı ciddi tədbirlər həyata keçirilir. Bunun üçün dəniz turizminin inkişafı, rekreasiya zonalarının yaradılması, sağlamlıq turizminin növlərinin artırılması, qış turizminin daha da inkişaf etdirilməsi, həmçinin ölkəmizə xarici turistlərin cəlb olunması üçün təbliğat işlərinin gücləndirilməsi bu gün qarşıda duran əsas vəzifələrdəndir.

Hazırda respublikamızda tətbiq olunan “Tax free” sisteminə qoşulan ticarət obyektlərinin sayının artırılması istiqamətində tədbirlər həyata keçirilir. Ticarət festivallarının (“shopping festival”) təşkili ilə bağlı görüləcək işlərlə əlaqədar olaraq turizm obyektlərinin müvafiq təklifləri təhlil edilir.

Azərbaycanda turizm inkişafını bu ilin ilk yarısında respublikamıza üz tutan xarici turistlərin sayı ilə bağlı rəsmi statistikadan da görə bilərik. Məsələn, hesabat dövrü ərzində ölkəmizə 1 milyon 323 min 303 nəfər turist səfər edib. Respublikamıza ən çox turist axını Rusiyadan olub ki, onların da sayı 403 min 549 nəfərə çatıb. Bundan başqa, Gürcüstandan 279 min 102, İrandan 146 min 480, Türkiyədən isə 142 min 476 nəfər turist ölkəmizə gəlib. Digər yerləri isə BƏƏ, Ukrayna, İraq, Qazaxıstan, Küveyt, Birləşmiş Krallıq, İsrail, Hindistan, Pakistan, Türkmənistan, Qətər və başqa ölkələr bölüşür.

Ölkəmizdə turizmin daha da inkişaf etdirilməsi üçün hazırda bir neçə istiqamət üzrə tədbirlər həyata keçirilir. Məsələn, Bakının kommunikasiya və marketinq planı hazırlanır və turizm brendi formalaşdırılır. Paytaxtın marketinq strategiyası üzrə də işlər görülür, biznes strukturları ilə əlaqələr genişləndirilir.

Turizm sektorunda ayrı-ayrı istiqamətlər üzrə bazarların təhlili, öyrənilməsi də diqqət mərkəzində saxlanılır. Bundan başqa, eko və aqro turizmin inkişaf etdirilməsinə xüsusi önəm verilir. Bələdçilərin, otel işçilərinin, turizm menecerlərin sayının artırılması da qarşıda duran əsas vəzifələr sırasındadır.

*Vaqif BAYRAMOV, “Xalq qəzeti”*

# ETSN: Azərbaycanda meşə yanğınlarının 97 faizi insan amili ilə bağlıdır

***Azərbaycanda meşə və çöl ərazilərində yanğınların 97 faizi insan faktoru ilə bağlıdır.***

Trend-in məlumatına görə, bunu mətbuat konfransında Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əlizadə deyib.

O bildirib ki, Azərbaycanda meşələrin 85 faizi dağlıq, 15 faizi aran ərazilərdə yerləşir: “Meşələrin çox hissəsinin dağlıq ərazilərdə yerləşməsi səbəbindən həmin ərazilərin öz-özünə yanması çətin məsələdir”.



Nazir müavini qeyd edib ki, Azərbaycan ərazisinin 12 faizi meşədir: “Yəni ölkədə meşəlik ərazilər azdır. Bu səbəbdən də həmin meşələrə qayğı ilə yanaşmalıyıq”.

F.Əlizadə qeyd edib ki dağlıq ərazilərdə yanğınlarla mübarizə aparmaq çətindir. Ona görə də vətəndaşlarımız məsuliyyətli olmalıdırlar. Bu sərvətlər hər birimizindir”.

# Ermənistan sutka ərzində atəşkəs rejimini 81 dəfə pozub

***Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 81 dəfə pozub.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Populyar amerikan radio-şousunun efirində Avropanın enerji təhlükəsizliyinin təminində Azərbaycanın rolundan bəhs edilib

❒ *SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov populyar amerikan radio-şousu "John Batchelor Show"da Azərbaycanın neft-qaz sektorunda qazandığı nailiyyətlərdən bəhs edib.*

Bakıda səfərdə olan radioaparıcı Con Batçelor ölkəmizin ABŞ, digər Qərb tərəfdaşları, habelə region üçün əhəmiyyətindən danışaraq qeyd edib ki, Qərblə Şərq arasındakı əlverişli məkanda yerləşən Azərbaycan Avrasiyanı transformasiya etmək imkanına malikdir.

Azərbaycanın energetika siyasətindən bəhs edən Elşad Nəsirov deyib ki, hazırda ölkəmiz təbii qaz ixracatçısına çevrilir. Xəzər dənizinin sahilindən Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyaya uzanan boru xətti ilə Avropaya qaz tədarük ediləcək. SOCAR rəsmisi daha sonra "John Batchelor Show"nun dinləyicilərinə Azərbaycanın ixrac boru kəmərləri şəbəkəsinin tarixi haqqında



məlumat verib. O bildirib ki, Bakıdan Batumiyə uzanan ilk boru kəməri 1907-ci ildə çəkilib.

E.Nəsirov diqqətə çatdırıb ki, Cənub Qaz Dəhlizi bütün dünyada ən iri və bahalı layihələrdən biridir. Yeddi ölkə, on iki sərmayəçi və alıcıları birləşdirən Cənub Qaz Dəhlizinin təsir dairəsi çox böyük olacaq. Məsələn, Azərbaycan Albaniyanın energetika tarixində ilk dəfə olaraq bu ölkəyə qaz tədarük edəcək. Cənub Qaz Dəhlizi boyu yerləşən bütün ölkələr ondan gəlir əldə edəcəklər.

SOCAR-ın vitse-prezidenti Azərbaycanın qazandığı nailiyyətlərdən də ətraflı bəhs edib. Vurğulayıb ki, ölkəmizdə qadınlara seçki hüququ bir çox Avropa ölkələrindən tez verilib. O diqqətə çatdırıb ki, 30 ilə yaxındır torpaqlarımızın işğalını davam etdirən Ermənistan istisna olmaqla, Azərbaycan bütün qonşu ölkələrlə mehriban dostluq münasibətləri saxlayır.

Söhbət əsnasında Con Batçelor dinləyicilərinə bildirib ki, Avropanın enerji təhlükəsizliyi öz başlanğıcını Azərbaycandan götürür. Aparıcı onu da qeyd edib ki, ABŞ Prezidenti Donald Tramp bu yaxınlarda İtaliyanın Baş naziri Cüzeppe Konte ilə görüşü zamanı Trans-Adriatik qaz boru kəmərinin Avropa üçün əhəmiyyətini də müzakirə edib. Bu, Azərbaycandan Avropaya çəkilən boru kəmərinin ABŞ-ın Avropadakı müttəfiqlərinin enerji təhlükəsizliyi üçün mühüm olmasını göstərir.

Avropanın enerji təhlükəsizliyi siyasətindən danışan E.Nəsirov qeyd edib ki, enerji ehtiyatları idxalında bir neçə alternativin olması hər bir dövlət üçün zəruridir və bu da, öz növbəsində, müxtəlif siyasi təsirlərə qarşı təhlükəsizliyi təmin edir. Prezident Trampın Avropaya alternativ mənbələrdən enerji ehtiyatları tədarükünü dəstəkləməsi "köhnə qitə" üçün çox vacibdir.

*Yusif BABANLI*
*AZƏRTAC-ın xüsusi müxbiri*

Vaşinqton

# SOCAR-ın Türkiyədəki "Star" zavoduna ilk neft yükü Azərbaycandan çatdırılıb

## *Zavodda sınaq məqsədilə xam neft emalına başlanılıb*







❒ *SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi "Star" neft emalı zavodunda (NEZ) sınaq məqsədilə xam neft emalına başlanılıb.*

AZƏRTAC xəbər verir ki, zavoda 80 min tonluq ilk xam neft yükü Azərbaycandan çatdırılıb. Fəaliyyətə başlamaq ərəfəsində olan zavodda açılış tarixi – oktyabr ayına qədər sınaq məqsədilə emal həyata keçiriləcək.

Zavoda ilk xam neftin gəlişi münasibətilə təşkil olunan tədbirdə çıxış edən "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov bildirib ki, zavoda ilk xam neftin SOCAR-ın vətəni olan Azərbaycandan gətirilməsi böyük məna ifadə edir: "Star" NEZ Türkiyədə özəl sektor tərəfindən həyata keçirilən ən böyük investisiyadır və avqustdan etibarən sınaq məqsədilə ilk emalını həyata keçirməyə başlayıb. "Star" NEZ-in fəaliyyətə başlamasından əvvəl ən vacib mərhələlərindən biri sayılan sınaq fəaliyyəti məqsədilə 80 min tonluq ilk xam neft 244 metr uzunluğundakı "Abşeron" tankeri ilə gətirilib. Bu ilk xam neft SOCAR-ın vətəni Azərbaycandan gələn "Azeri Light" olub".

SOCAR-ın strateji böyümə trendləri arasında xarici bazarlardakı investisiyaların genişləndirilməsinin önəmli bir yer tutduğunu qeyd edən Z.Qəhrəmanov deyib: "Dünya enerji bazarında əmin addımlarla irəliləyən SOCAR bir çox ölkədə fəaliyyətlərini davam etdirir. Bu ölkələr arasında Türkiyə bizim üçün çox önəmli bir yerə sahibdir. SOCAR olaraq Azərbaycan və Türkiyə iqtisadiyyatlarının inkişafına dəstək verməyə davam edəcəyik. Bu çərçivədə Türkiyə dövləti ilə həyata keçirdiyimiz əməkdaşlıq bizim üçün böyük önəm və məna ifadə etməkdədir. Fürsətdən istifadə edərək Türkiyə və Azərbaycan hökumətlərinə öz təşəkkürümü bildirirəm".

"Star" neft emalı zavodunun baş direktoru Mesut İlter isə deyib ki, bu ilin dördüncü rübündə fəaliyyətə başlayacaq zavodun sınaq fəaliyyəti uğurla davam edir: "Star" NEZ-in ilk neftinin "Azeri Light" olması bizim üçün böyük məna ifadə edir. "SOCAR Turkey" olaraq Türkiyənin ən böyük sənaye qrupu olma yolunda hər keçən il sürətlə irəliləyərik. Strateji investisiyalarımız ilə ölkə iqtisadiyyatına və sənayesinə güc qatmağa davam edəcəyik. Yerli istehsalı artıran, idxaldan asılılığı və cari kəsiri azaldan, eləcə də yeni iş yerləri yaradan sərmayələrimizi qarşıdakı illərdə də genişləndirəcəyik".

M.İlter bildirib ki, Avropa, Orta Şərq və Afrikanı əhatə edən, bölgədəki ən böyük neft əməliyyatlarından biri olan "Star" NEZ-də fəaliyyətə başlamadan əvvəl ən vacib məqamlardan biri sayılan sınaq fəaliyyəti üçün ilk neftin Azərbaycandan gəlməsi iki qardaş ölkə arasındakı bu tarixi əməkdaşlığın bir nümunəsidir.

"Müəssisələrdə istismara hazırlıq və sınaq işlərindən sonra sınaq məqsədilə ilk emal mərhələsinə çatmışıq. Hədəfimiz "Star" NEZ-i planlaşdırdığımız kimi bu ilin üçüncü rübündə tamamlayaraq fəaliyyətə başlamasını təmin etmək, eyni zamanda, Azərbaycan və Türkiyə iqtisadiyyatlarına dəyər qatmaqdır", - deyə o əlavə edib.

"Star" NEZ-in iqtisadiyyatın mühüm elementlərindən biri olacağını ifadə edən M.İlter deyib: "Türkiyənin ilk Strateji Sərmayə Təşviqi Sənədinə sahib olan "Star" NEZ Türkiyədə cari kəsirin azalmasına hər il 1,5 milyard dollarlıq töhfə verəcək. 2017-ci ilin avqust ayından bu günədək böyük bir əzim və qərarlılıqla fəaliyyət göstəririk. Artıq istehsaldan əvvəl son mərhələdəyik. Türkiyə və Azərbaycan iqtisadiyyatlarına böyük dəyər qatacaq istehsal əməliyyatına ilk xam neftin qəbulu ilə başlamış olacağıq. Bu, bizim üçün böyük bir qürurdur. 4,8 milyon ton dizel yanacağı və 1,6 milyon ton nafta ilə yanaşı, ölkəmizdəki cari kəsirin önəmli hissələrindən olan təyyarə yanacağı və mayeləşdirilmiş neft qazı (LPG) kimi neft məhsullarının istehsalını da reallaşdıracaq "Star" NEZ ilə Türkiyənin qlobal enerji bazarında rəqabət gücü də artacaq".

Qeyd edək ki, STEAŞ-ın hədəfləri arasında böyük əhəmiyyətə malik neft-emalı və neft-kimya inteqrasiyasını təmin edəcək, qrupa daxil olan şirkətlərdən biri olan və Türkiyənin ilk neft-kimya müəssisəsi "Petkim"in xam maddə tələbatının demək olar ki hamısını təmin edəcək "Star" NEZ yeni iş yerlərinin yaradılmasına da töhfə verəcək. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman burada 1100 nəfərlik yeni iş yeri yaradılacaq.

İllik 10 milyon ton xam neft emal gücü olacaq "Star" neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen, və 160 min ton kükürd istehsal olunacaq.

Xatırladaq ki, "Star" zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

# Avropa çempionatının qalibi olan ağır atletlərlə Gənclər və İdman Nazirliyində görüş keçirilib



❒ *Yeniyetmə oğlanlar və qızlar arasında keçirilən ağır atletika üzrə Avropa birinciliyində uğurla çıxış edən Azərbaycan yığmasının üzvləri ilə avqustun 3-də Gənclər və İdman Nazirliyində (GİN) görüş olub.*

AZƏRTAC xəbər verir ki, görüşdə gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov, Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) vitse-prezidenti Ruslan Xanverdiyev, baş katib Rizvan Rəsulov, məşqçilər və milli komandanın üzvləri iştirak ediblər.

Nazir müavini İsmayıl İsmayılov idmançılarımızı qələbə münasibətilə təbrik edib. O, 15 yaşlı ağır atletlərimizin komanda hesabında qızıl medal qazanmalarının, ümumilikdə 22 medalın əldə edilməsinin tarixi nailiyyət olduğunu deyib. İ.İsmayılov qazanılan bu yüksək nailiyyətin əsasında ölkəmizdə idmanın, o cümlədən ağır atletikanın inkişafına göstərilən yüksək diqqət və qayğı ilə yanaşı, federasiya rəhbərliyinin uğurlu fəaliyyətinin də dayandığını vurğulayıb. İdmançılara federasiya rəhbərliyinin icazəsi olmadan heç bir dərman preparatlarından istifadə etməməyi tövsiyə edən İ.İsmayılov bildirib: "Bəzən hansısa dərman preparatı sonradan dopinq kimi qəbul olunur. İllərlə əziyyət çəkən idmançı belə vəziyyətdə kiçik məsuliyyətsizlik ucbatından karyerasını məhv edə bilər. Ona görə də diqqətli və məsuliyyətli olmaq lazımdır".

AAAF-ın baş katibi Rizvan Rəsulov ağır atletikanın Azərbaycanda dərin ənənələrə malik idman növü olduğunu qeyd edib. O, bu idman növünün ölkəmizdə daha da inkişafı üçün əhatəli konsepsiyanın hazırlandığını deyib: "Problemlərə baxmayaraq, inkişaf konsepsiyasına əsasən, aşağı yaşlı idmançılarımızı tam hazırlayıb daha yuxarı yaş kateqoriyalarına keçirdik. Bu da öz bəhrəsini verdi. Yeniyetmələrin sonuncu Avropa çempionatında qazandıqları 22 medal və 15 yaşlı idmançılar arasında komanda hesabında çempionluğun əldə olunması işlərin düzgün qurulduğunu göstərir. Çalışacağıq ki, Yeniyetmələrin Olimpiya Oyunlarında da yüksək nəticələr qazanaq".

Bütün yaş kateqoriyaları üzrə milli komandaların baş məşqçisi Asif Məmmədov yeniyetmə idmançıların böyük ümidlər vəd etdiklərini vurğulayıb, qazanılan nəticələrdən məmnunluğunu bildirib. O, Azərbaycan dövlətinin ölkəmizdə idmanın digər növləri kimi, ağır atletikanın da inkişafına yüksək diqqət və qayğı göstərdiyini, bu etimadı qarşıdakı yarışlarda da layiqincə doğrultmağa çalışacaqlarını qeyd edib.

Nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov yığmamızın uğurlarını yüksək qiymətləndirərək ağır atletlərə uğurlar arzulayıb.

Millimizin üzvü, Avropa çempionu Ömər Cavadov çempionatda rəqiblərinin güclü olmalarına baxmayaraq, son ana qədər yüksək əzmkarlıqla mübarizə apararaq uğur qazandıqlarını bildirib. O, göstərilən diqqət və qayğıya, yaradılan əlverişli şəraitə görə federasiya rəhbərliyinə və məşqçilərə minnətdarlığını bildirib.

Digər atletlər də uğurlu nəticələrin yaradılan yüksək şəraitin, diqqət və qayğının nəticəsi olduğunu vurğulayıblar.

Xatırladaq ki, iyulun 22-29-da İtaliyanın Milan şəhərində keçirilən 15 və 17 yaşadək oğlanlar və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyində yığmamızın üzvləri 22 medal qazanıblar. Çempionatda 15 yaşlı idmançılardan ibarət millimiz isə Bolqarıstan və Türkiyə yığmalarını geridə qoyaraq, komanda hesabında Avropa birinciliyinin qalibi olub.

# Media nümayəndələri "Qoşa Təpə" gömrük postuna səfər edib




❒ *Avqustun 3-də kütləvi informasiya vasitələrinin bir qrup nümayəndəsinin Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədində yerləşən Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postuna səfəri təşkil edilib.*

AZƏRTAC xəbər verir ki, səfərin təşkilində məqsəd media nümayəndələrinə gömrük prosedurlarının Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) ilə idarə olunmasını, sərhədkeçmə prosesini, gömrük nəzarəti prosedurlarını əyani şəkildə nümayiş etdirmək, bu proseslərin icrası zamanı şəffaflığın tam təmin edildiyi barədə bilgiləndirmək olub.

Məlumat verilib ki, gömrük postunda bütün proseslər informasiya-kommunikasiya texnologiyalarının tam tətbiqi ilə minimum vaxt ərzində, asan və şəffaf şəkildə həyata keçirilir. Ölkənin gömrük ərazisinə daxil olan nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanı xüsusi müşahidə kameraları ilə VAİS-ə daxil edilir və nəqliyyat vasitəsinin çəkisi müəyyən edildikdən sonra "bir pəncərə" sistemi vasitəsilə qeydiyyat işləri qısa zamanda başa çatdırılır. Fiziki baxış keçirildikdən sonra isə mexaniki-elektron kilidlə (GPS) təmin edilən nəqliyyat vasitəsi təyinat gömrük orqanına yola salınır və bu proses avtomobil və yükə dair sənədlər qaydasında olduğu halda qısa vaxt ərzində yekunlaşdırılır.



Daha sonra media nümayəndələri idxal sərnişin xəttindəki proseslərlə tanış olub və burada həyata keçirilən gömrük prosesləri barədə məlumatlandırılıb.

"Qoşa Təpə" gömrük postunda bəzi hallarda müşahidə olunan sıxlıqların səbəbləri də jurnalistlərə izah olunub. Bildirilib ki, səbəb bəzi günlərdə hər iki istiqamətdə sərnişin axınının normadan artıq olması və fiziki şəxslər tərəfindən Nazirlər Kabinetinin 305 saylı qərarının tələbləri pozularaq qanunvericilikdə nəzərdə tutulandan çox ərzaq məhsullarının və digər malların gömrük sərhədindən keçirilməsinə cəhdlərin edilməsidir.

Eyni zamanda, "Qoşa Təpə" gömrük postunda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yük nəqliyyat vasitələrinin sərhədkeçmə prosesini daha da sürətləndirmək məqsədilə yeni pilot layihənin tətbiqinə başlanıldığı diqqətə çatdırılıb.

"Bir inspektor - bir nəqliyyat vasitəsi" prinsipinə əsaslanan layihə "bir pəncərə" sistemi çərçivəsində reallaşdırılır. Layihəyə əsasən, bir nəqliyyat vasitəsinə aid olan prosedur bir inspektor tərəfindən həyata keçirilir və proses ümumilikdə 10-15 dəqiqəyə başa çatdırılır. Əvvəl isə 1 nəqliyyat vasitəsinin qeydiyyat proseduruna 4 və daha çox gömrük əməkdaşı cəlb olunurdu. Üstəlik, yeni layihə çərçivəsində qeydiyyat prosedurunun başa çatması sürücünün elektron imzası ilə təsdiqlənir.

Yeniliklərdən biri də budur ki, əvvəl gömrük qaydalarını pozan nəqliyyat vasitələri üzrə tətbiq edilən cərimələri yalnız banklar vasitəsilə ödəmək mümkün idisə, hazırda "ASAN Pay" və digər elektron ödəmə sistemləri vasitəsilə də ödənişləri həyata keçirmək olur.

# Şabranda 26 kilometr uzunluğunda avtomobil yolu yenidən qurulur

❒ *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Şabran rayonunda 26 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması işləri yüksək keyfiyyətlə aparılaraq yekunlaşdırılır.*



Agentlikdən "Trend"ə verilən məlumata görə, söhbət Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolundan gedir.

Tikinti layihəsinə uyğun olaraq yolun 19,7 kilometrlik hissəsində qabarmış və çökmüş hissələrin qazılaraq çıxarılması, qazılmış hissələrinin doldurulması, yolun torpaq yatağının qaldırılması və genişləndirilməsi, qruntun hissə-hissə avtoqreyderlə yayılması və lay-lay kipləşdirilməsi işləri aparılıb. Bu işlərin həcmi 90 min kubmetrə yaxındır. Yolun müəyyən hissəsində yolun genişləndirilməsi üçün dağ yamacının kəsilməsi işləri də görülüb.

Yolun 5.8-ci kilometrdə Dəvəçi çayı üzərində uzunluğu 21 metr, eni isə 8 metr olan 1 aşırımlı körpünün tikintisi nəzərdə tutulmuşdur.

Layihənin sonuncu mərhələsində isə 12 yerdə avtobus dayanacaqları, həmçinin hərəkətin normal təşkili üçün 85 ədəd yol nişanı, 26 ədəd km göstərici və 1016 ədəd siqnal dirəyi quraşdırılacaq, 77,9 kilometr uzunluğunda xətlənmə işləri aparılacaq.

Qeyd edək ki, 26 kilometr uzunluğunda olan yolun 19,7 kilometrlik hissəsi çınqıl örtüklü idi. Uzun illər istismar olunmasına baxmayaraq, yol indiyə qədər yenidən qurulmamışdı. Hətta yolun bəzi hissələrinin IV texniki dərəcəyə uyğunlaşdırılması üçün torpaq yatağının genişləndirilməsinə ehtiyac var idi. Yolun qalan 6,3 kilometrlik hissəsi asfalt-beton örtüklü olmasına baxmayaraq, bu hissənin də əsaslı şəkildə təmirinə ehtiyac var idi.

Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolu 5 yaşayış məntəqəsini əhatə etməklə 6 mindən artıq vətəndaşın rayon mərkəzinə, ordan da respublikanın istənilən nöqtəsinə rahat gediş-gəlişini təmin edəcək, marşrut boyu kənd təsərrüfatı və turizmin daha da inkişaf etməsinə şərait yaradacaq.

# MMC-nin vəzifəli şəxsləri barələrində həbs qətimkan tədbiri seçilməklə axtarışa veriliblər

❒ *Prokurorluq orqanları tərəfindən əməyin mühafizəsi, yanğın və texniki təhlükəsizlik qaydalarının tələblərinin pozulmasının qarşısının alınması, vəzifə öhdəliklərinə səhlənkar yanaşan şəxslərin məsuliyyətə cəlb olunmaları istiqamətində qətiyyətli tədbirlərin görülməsi davam etdirilir.*

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari il iyulun 28-də saat 19 radələrində Bakı-Quba yolunun 29 kilometrliyində fəaliyyət göstərən avtotəmir sexində "DAF" markalı yük avtomobilinin yanacaq çənində qaynaq işləri aparılarkən çənin partlaması nəticəsində orada usta işləyən Müsü Məlikov, Akif Quliyev, Rövşən Məlikov və avtomobilin sahibi Fərhad Rüstəmovun yanıq xəsarətlərindən ölmələri faktına görə Sumqayıt Şəhər Prokurorluğunda cinayət işi başlanıb.

Aparılmış istintaqla müəyyən edilib ki, üzərlərinə yanğın təhlükəsizliyinə cavabdehlik vəzifəsi qoyulmuş MMC-nin vəzifəli şəxsləri tərəfindən əməyin mühafizəsi, elektrik qaynaq işləri zamanı texniki təhlükəsizlik və yanğın təhlükəsizliyi qaydalarının tələbləri kobud şəkildə pozulmaqla bilik və təcrübəsi yoxlanılmayan, xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təchiz olunmayan işçilər qaynaq işlərinə cəlb olunublar.

İş üzrə qaynaq və digər odlu işlərin görüləcəyi ərazidə və binalarda yanğın təhlükəsizliyinə cavabdehliyi öz üzərinə götürmüş MMC-nin baş mühasibi Elçin Salmanov Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Həmçinin iş üzrə MMC-nin direktoru Səyavuş Qurbanzadə və yanğın təhlükəsizliyinə cavabdeh Hüseyn Kazımov Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqlarından barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib və onlar axtarışa veriliblər.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Salyan: Günəşin hərarəti və torpağa bağlı insanların fədakarlığı



***İki-üç gün əvvəlin söhbətidir. Bakı-Astara yolu ilə Salyan rayonuna tərəf gedirdim. Rayon mərkəzinə çathaçatda, Kürün üzərindəki böyük körpüdən keçən zaman qeyri-ixtiyari olaraq, çayın sularına nəzər yetirdim. Yayın qızmar çağında belə çayda suyun bol olduğunu görüb sevindim.***

Qəlbimdə bir rahatlıq yarandı. Ana Kür səmadakı iri yanar kürənin – Günəşin oduna, hərarətinə məhəl qoymadan bu torpağın, bu insanların dadına çatmağa tələsirdi. Nə yaxşı ki, Muğanda günəş bol olduğu kimi, su da boldur. Düşündüm ki, Muğanın ən



böyük sərvəti, təbii ki, onun doğma yurda, torpağa bütün ruhu, qəlbi ilə bağlı zəhmətsevər insanlarıdır.

## Pambıqçılığın inkişafı üçün “yaşıl işıq”

İnsafən, Salyanda əkin-biçin adamları üçün son illər bir-birindən uğurlu gəlir. Bu gün aqrar sahədə prioritet pambıqçılıqdır. Rayon əhalisi, əmək kollektivləri bu gəlirli sahənin yenidən dirçəlməsindən razılıq edirlər. Onlar dərin məmnunluq hissilə xatırlayırlar ki, ulu öndər Heydər Əliyevin respublikamıza başçılıq etdiyi 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Salyan pambıqçılıq sahəsində irəlidə gedən rayonlardan biri idi. İndi bu mühüm sahədə təcrübə və ənənələr yenidən bərpa edilir.

Təsadüfi deyil ki, Salyan RİH-in başçısı Sevindik Hətəmov mənimlə söhbətə məhz rayon pambıqçılarının qayğı və problemlərindən başladı. Bildirdi ki, indi Salyanın əksər kəndlərində bol pambıq məhsulu becərilir. RİH başçısı sonra dedi:

– Dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev respublika pambıqçılarına pambıq əkini sahələrinin məhsuldarlığını artırmağı bir vəzifə olaraq qarşıya qoyub. Biz indi əsas diqqətimizi məhz bu məsələyə yönəltmişik. Əminəm ki, məhsuldarlığın yüksəldilməsi bu sahədə çalışan fermerlərin gəlirlərinin xeyli artmasına səbəb olacaq.

Həmin gün Salyanda pambıqçılıq sahəsində ixtisaslaşan fermerlərin fəaliyyəti ilə yaxından tanış olmağı qərara aldım. Əvvəlcə Qızılağac kəndinə yollanıb burada qabaqcıl fermer Emin Mirzəyev ilə görüşdüm. Öyrəndim ki, Eminin başçılıq etdiyi fermer təsərrüfatının üzvləri ötən il 102 hektar sahədə pambıq məhsulu yetişdiriblər. 2017-ci ildə hər hektardan 20 sentnerə yaxın məhsul toplanıb. Bu il əkin sahələri, demək olar ki, eyni həcmdə qalsa da, fermer məhsul istehsalını 20 faiz artırmaq əzmindədir.

Eminin sözlərinə görə, rəhbərlik etdiyi kollektiv çiyid səpinindən tutmuş bütün aqrotexniki tədbirləri yüksək səviyyədə həyata keçirib. İndi əsas vəzifə son becərmə işlərini uğurla başa çatdırıb, məhsulun toplanmasına ciddi hazırlıq görməkdir. Emin dedi:

– Elə etmək lazımdır ki, min bir zəhmət hesabına hasil olan məhsulun toplanması zamanı itkiyə yol verilməsin.

Qardaşbəyli kəndində fermer İbadət Cəfərovun tarlasındakı pambıq sahəsinin vəziyyətinə söz ola bilməzdi. Səliqə ilə becərilmiş pambıq kollarına nəzər yetirdim. İnsafən, burada kollektivin hər bir üzvü böyük həvəslə çalışıb. Fermer dərin əminlik hissilə bildirdi ki, bu il kollektiv hər hektardan azı 25 sentner məhsul toplayacaq. Bu, keçən illə müqayisədə 5 sentner çox məhsul deməkdir.

Sarvan kəndində isə Mərdan Cəlilov adlı başqa bir fermerlə tanış oldum. Mərdanın başçılıq etdiyi fermer təsərrüfatı ötən il 40 hektar sahədə pambıq becərib. 2017-ci ildə bol məhsul toplayıb, yüksək qazanc əldə ediblər. Ona görə də bu il pambıq əkini sahələrini birdən-birə iki dəfə yarım artıraraq 100 hektara çatdırıblar.

Mərdan deyir ki, Salyan rayonunda pambıqçılığın sürətli inkişafı üçün həqiqətən, “yaşıl işıq” yandırılıb. Bu sahədə çalışan fermerlərin nə gübrədən, nə də texnika sarıdan heç bir çətinlikləri yoxdur.

Görünən budur ki, pambıqçılıq Salyanda yenidən rayon iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilmişdir. Məlumat üçün bildirək ki, bu il rayonda 7055 hektar torpaq sahəsində pambıq əkini aparılmış və becərmə işləri görülmüşdür. Pambıqçılığın inkişafı rayonda əhalinin məşğulluğunun yüksəlməsinə səbəb olmuşdur. Məlumat verdilər ki, hazırda Salyanda pambıq əkini aparılmış sahələrdə 5995 nəfər işlə təmin olunmuşdur.

Salyanda son illər təkcə pambıqçılıq sahəsində deyil, kənd təsərrüfatının digər sahələrində də nəzərəçarpan uğurlar əldə edilir. Salyan respublikamızın böyük taxılçılıq rayonlarından biri sayılır. Rayon Kənd Təsərrüfatı İdarəsinin müdiri Tariyel Atamalıyev dedi ki, rayonda ötən payızda bu ilin məhsulu üçün 16813 hektar sahədə taxıl əkilib. Bu il taxıl zəmilərindən 41 min ton məhsul toplanmışdır. Hektarın məhsuldarlığı orta hesabla 31,7 sentner olmuşdur.

Bu il rayondakı 420 hektar kartof sahəsindən 5,1, 1241 hektar tərəvəz sahəsindən 20, 822 hektar bostan sahəsindən 1,1 min ton məhsul yığılmışdır. Hazırda əkin sahələrində yığım davam etdirilir.

Rayonda faraş tərəvəz istehsalının artırılması və ixracının təşviq edilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Qaraçala qəsəbə, Yenikənd, Yolüstü və Qarabağlı kənd ərazilərində istixana sistemində yetişdirilən faraş tərəvəzlər yaxın xarici bazara göndərilmişdir.

Salyanda heyvandarlığın inkişafı sahəsində də uğurlar əldə edilir. 2018-ci ilin iyul ayının 1-nə iribuynuzlu heyvanların sayı 63 min 315 baş, o cümlədən, inək və camışlar 33 min 240 baş, qoyun və keçilər 186 min 506 baş olmuşdur. Ət istehsalı 4630, süd istehsalı 24534 ton, yumurta istehsalı 17 milyon 245 min ədəd olmuşdur. Bütün istiqamətlər üzrə ötən illə müqayisədə irəliləyiş əldə olunmuşdur.

## Abadlıq, tikinti-quruculuq yeni vüsət alıb



Salyanda abadlıq-quruculuq işləri son vaxtlar geniş vüsət alıb. Maraqlıdır ki, abadlıq işləri böyük zövqlə, səliqə ilə görülür.

Salyan RİH-in memarlıq və tikinti şöbəsinin müdiri Teyyub Hüseynov dedi ki, bu ilin əvvəlindən rayonda abadlıq və quruculuq işlərinin həcmi daha da artmışdır. Belə ki, son altı ayda şəhərdəki 38 kommunal binada əsaslı təmir işləri görülmüşdür. Bundan başqa, Xəlil Rza Ulutürk küçəsi 14, Yusif Qasımov 4, 6, Cəfər Cabbarlı küçəsi 14, Ağaxan Ağabəyli küçəsi 1a-da binaların dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur.

Şəhərin Elçin İmanov, Aşıq Pənah, Hacı Zeynalabdin Tağıyev və Taleh Davudzadə küçələrində abadlıq işləri davam etdirilmişdir. Bundan başqa, şəhərin bir sıra, eləcə də şəhərin ən böyük küçələrindən biri olan Qüdrət Səmədov küçəsinə asfalt-beton örtük vurulmuşdur.

Son illər Azərbaycanın hər yerində yol-nəqliyyat infrastrukturu inkişaf edir. Salyanda da bu istiqamətdə nəzərəçarpan işlər görülüb. Ələt-Astara magistral avtomobil yolunun Salyan rayonu ərazisində, həmçinin Qaraçala-Düzənlik-Peyk kəndlərini birləşdirən yolda və 45 kilometr uzunluğunda Salyan-Neftçala avtomobil yolunda tikinti işləri başa çatdırılmış, 13,1 kilometr uzunluğunda Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu kəndini birləşdirən kəndarası avtomobil yolunun və Noxudlu kəndindən keçən Şirvan-Salyan avtomobil yolunun 13 kilometr hissəsinin tikinti işləri davam etdirilmişdir.

Qeyd etmək lazımdır ki, Şirvan-Salyan yolu uzun müddət təmirə başlanılmasına baxmayaraq işlər ləng gedirdi ki, bu da həmin yol üstündə yaşayan sakinlərin haqlı narazılığına səbəb olurdu. Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2018-ci il tarixli “Şirvan-Salyan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” sərəncamı ilə avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə 10 milyon manat vəsait ayrılmış və işlərə başlanılmışdır. Yolun tikintisinin qısa zamanda başa çatdırılması nəzərdə tutulmuşdur.

Salyanda kiçik və orta sahibkarlığın inkişafına xüsusi önəm verilir. Yaxşı haldır ki, bir sıra iş adamları, böyük həvəslə yeni istehsal və xidmət müəssisələrinin tikintisinə başlayıblar. Məsələn, rayonun Həsənli kəndi ərazisində 100 min başlıq damazlıq quşçuluq təsərrüfatı, Kürsəngi kəndi ərazisində istixana kompleksi, şəhər ərazisində Pivə və limonad istehsalı zavodları, ikimərtəbəli “bazar-ticarət mərkəzi”, ümumi sahəsi 12,8 hektar olan daha 7 istixana kompleksinin tikintisi başa çatdırılmışdır. Rayonun Xıdırlı kəndi ərazisində zeytun və meyvə emalı zavodlarının tikintisi sürətlə davam edir. Qeyd edilən zavodların tikintisi məhsul istehsalının artımı ilə yanaşı, yüzdən artıq yeni iş yerlərinin yaranmasına səbəb olacaqdır.

Rayonda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 sahibkara 552 min manat kredit verilmişdir. Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ilin 6 ayında 510-u daimi olmaqla 2856 yeni iş yeri yaradılmışdır.

## Əhalinin elektrik, təbii qaz, içməli su təchizatı yaxşılaşıb

Salyanda son illər əhalinin elektrik, təbii qaz, içməli su təminatı sahəsində xeyli iş görülmüşdür. Rayon sakinlərini davamlı elektrik enerjisi ilə təmin etmək üçün 2018-ci ilin birinci yarımilində yüksəkgərginlikli elektrik transformatorlarında, yarımstansiyalarda təmir işləri aparılmış, 83 ədəd transformatora 8,5 ton yağ əlavə olunmuşdur.

Şəhərin SİB kabelə keçməsi ilə əlaqədar 1114 ədəd ağac dayaq yeni dəmir və dəmir-beton dayaqla əvəz edilmişdir. Texniki itkilərin azaldılması məqsədilə rayon ərazisində 20,5 kilometr SİB kabel çəkilmişdir. Salyan şəhərində ümumilikdə 1977 abonentlərdə müasir “SMART kart” və 767 ədəd “SMS” tipli sayğac quraşdırılmışdır.

Əhalinin təbii qazla təmin edilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Salyan şəhərinin mərkəzi və ətraf kəndlərində istehlakçıların qaz təsərrüfatında quraşdırılmış qaz sayğaclarının yeni çəkilmiş qaz xətləri üzərinə köçürülməsi işləri davam etdirilir. Salyan şəhəri 20 Yanvar küçəsi 16, 17, 18 və 19 nömrəli binalara müxtəlif diametrli qaz xətti çəkilərək 54 abonentə qaz sayğacı quraşdırılmış və binalara təbii qaz verilişi bərpa olunmuşdur.

Şəhərin Elçin İmanov küçəsinə, Qaraçala qəsəbəsi, Kürqaraqaşlı, Çadırlı, Arx-Arası, Kolanı, Yolüstü, Birinci Varlı, İkinci Varlı, Gomuşlu, Babazanlı, Çuxanlı kəndlərinə qaz tənzimləyicisi quraşdırılmış, 216 qaz sayğacı yenisi ilə əvəz olunmuş, 244 metr müxtəlif diametrli istismara yararsız qaz xətti yenisi ilə əvəz olunmuşdur.

Rayonun uzun illər təbii qazsız qalmış Kürsəngi kəndində tikinti-quraşdırma işləri başa çatdırılmış, ümumi uzunluğu 76244 metr uzunluqda qaz xətti çəkilmiş, 940 ədəd sayğac və 940 ədəd fərdi tənzimləyici quraşdırılmış, əhalinin istifadəsinə verilmişdir. Hazırda rayonun Peyk və Düzənlik kəndlərində qazlaşma işləri davam etdirilir. Salyan rayonunda təbii qazla təmin olunan abonentlərin sayı 25246-a çatdırılmış, 1039 yeni mənzil qazlaşdırılaraq qeydiyyata alınmışdır.



Lakin görülən işlərlə yanaşı, bu sahədə bir sıra problemlər hələ də qalmaqdadır. Belə ki, rayonda 5 yaşayış məntəqəsi qazlaşdırılmayıb. O cümlədən, Xıdırlı kəndi Sovetlər dövründən qazlaşdırılmamış qalmışdır. Fövqəladə Hallar Nazirliyi tərəfindən Kür çayında suyun səviyyəsinin qalxması nəticəsində evlərinə ziyan dəymiş vətəndaşlar üçün tikilmiş, eləcə də hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən fərdi yaşayış evlərinin, rayonun Qırx Çıraq qəsəbəsi, Çuxanlı və Aşağı Kürkəndi kəndlərində yeni salınmış yaşayış massivlərinin qazlaşdırılmasına ciddi ehtiyac vardır.

## Təhsilə, səhiyyəyə, mədəniyyətə qayğı artıb

Salyan ölkəmizin zəngin təhsil ənənələri olan rayonlarından biridir. Rayonun təhsil ictimaiyyəti bu ənənələri uğurla davam etdirmək, bu sahədə qabaqcıl təcrübəni yaymağa, yeni innovativ ideyaları tətbiq etməyə çalışır.

Qeyd etmək lazımdır ki, son illər Salyan rayonunun təhsil müəssisələrində maddi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli iş görülmüşdür. Təkcə bu ilin əvvəlindən Bəşirbəyli kəndində 6 sinif otağından ibarət məktəb binası tikilmiş, Kürsəngi və Sarvan kənd tam orta məktəblərində əsaslı təmir işləri davam etdirilmişdir.

Məlumat üçün bildirək ki, son tədris ilinin nəticələrinə görə XI siniflər üzrə 1171, IX siniflər üzrə 1390 şagird imtahanlara buraxılmışdır. Ali məktəblərə qəbul imtahanının ilkin mərhələsində 21 nəfər 600-dən yuxarı bal toplamışdır. Qəbul imtahanlarında ən yüksək nəticəni 675 balla 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin şagirdi Faiq Ağabəyov əldə etmişdir.

Prezident cənab İlham Əliyevin tapşırığına əsasən “Ölkəmizi tanıyaq” devizi altında təşkil olunan tur-aksiyada 40 məktəblimiz Quba, Qusar və Xaçmaz rayonlarına səfər edərək bölgələrin tarixi və görməli yerləri ilə tanış olmuşlar. Faiq adlı salyanlı yeniyetmə dedi ki, o, həmin tur-aksiyanın iştirakçısı olmuş, ölkəmizin şimal bölgəsinə səfərindən çox məmnun qalmışdır.

Bunlarla yanaşı, təhsil sahəsində problemlər də mövcuddur. 55 məktəbdən 19-u uyğunlaşdırılmış binalarda yerləşir, 23 məktəb təmirsiz, 4 məktəb isə qəzalı vəziyyətdədir.



Əhalinin sağlamlığının qorunması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz onun tapşırığına əsasən artıq beşinci ildir ki, 18 yaşdan yuxarı əhalinin tibbi müayinəsi, 18 yaşadək uşaqların icbari dispanserizasiyası aparılır. Bu günə kimi 69536 nəfər rayon əhalisi tibbi müayinədən, 19701 uşaq isə icbari dispanserizasiyadan keçmişdir.

Bu dövrdə Mərkəzi Gömrük Hospitalının Kardio Mərkəzinin həkimləri tərəfindən mərkəzi xəstəxanada əhalinin kardioloji müayinələri aparılmış, 530 nəfər müayinə olunmuşdur.

Qan xəstəliklərindən əziyyət çəkən xəstələrin qanla təmin olunması məqsədilə Mərkəzi Rayon Xəstəxanasında qanvermə aksiyası keçirilmişdir. Respublika Kardiologiya İnstitutunun, Mərkəzi Klinik Xəstəxanasının, M.Topçubaşov adına elmi-cərrahiyyə mərkəzinin və akademik Zərifə Əliyeva adına Milli Oftolmologiya Mərkəzinin həkimləri rayonda olmuş və mərkəzi xəstəxanada əhalinin tibbi müayinəsini aparmışlar.

Bunlarla yanaşı, səhiyyə sahəsində də müəyyən problemlər vardır. Ginekologiya şöbəsinin yerləşdiyi korpusun, Birləşmiş Uşaq və Parça-Xələc kənd xəstəxanalarının, Birləşmiş Uşaq Xəstəxanasının Poliklinika şöbəsinin, əksər tibb müəssisələrinin əsaslı təmirə, zəruri inventar və tibbi avadanlıqlara və istilik sistemləri ilə təmin olunmasına ehtiyac vardır. 4 kənddə tibb müəssisəsi yoxdur, 5 kənddə tibb məntəqələrinin müstəqil binaları olmadıqları üçün şəxsi evlərdə yerləşir.

Salyanda çox maraqlı bir insanla – Rayon Ağsaqqallar Şurasının sədri Beydulla İmanovla görüşüb tanış oldum. Beydulla müəllim 20 Yanvar şəhidi Elçin İmanovun atasıdır. 1996-2008-ci illərdə Qobustan Qazma Kəşfiyyat İşləri İdarəsində elektrik çilingəri vəzifəsində çalışıb. 2004-cü ildən Salyan Ağsaqqallar Şurasının sədridir.

Beydulla İmanov dərin inam hissilə dedi ki, son günlər bəzi xarici ölkələrdəki bədxahlarımız sosial şəbəkələr vasitəsilə ölkəmizə, dövlətçiliyimizə zərbə vurmaq, insanları süni surətdə dövlətimizdən narazı salmağa cəhd edirlər. Lakin möhkəm yanılırlar. Azərbaycanda xalq-iqtidar birliyini heç bir qüvvə sarsıda bilməz. Bəli, bəd qüvvələrin qara niyyətləri ürəklərində qalacaq. Beydulla İmanov sonra dərin inam hissilə dedi:

– Salyanlılar dövlətçiliyimizə sadiq insanlardır. Onlar Azərbaycanın inkişafına, tərəqqisinə xidmət edən Heydər Əliyev siyasətinin hazırda dövlətimizin başçısı möhtərəm İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsindən çox məmnundurlar.

Beydulla müəllimi dinlədikcə Salyan RİH-in başçısı Sevindik Hətəmovun sözləri yadıma düşdü: – Salyanlılar bundan sonra da Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan bütün tapşırıqların uğurla həyata keçirilməsində fəal iştirak edəcək və üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

**PS. Axşam Kürün üzərindəki körpüdən keçərək artıq Bakıya tərəf qayıdanda çayın üzərindən əsən sərin mehi hiss edib düşündüm ki, nə yaxşı ki, Muğanın Kürü, bir də qurub-yaratmaqdan zövq alan, bu qədim yurda, torpağa bağlı insanlar var.**

***Səməd HÜSEYNOĞLU,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Astarada ilin birinci yarısının nəticələri müzakirə olunub

***Ölkəmizin dilbər guşələrindən olan və sürətlə inkişaf edən rayonlardan biri də Astaradır. Son illərdə bu rayonun da siması xeyli dəyişib və gözəlləşib, camaatın həyat şəraiti daha da yaxşılaşıb.***

Yarımillik hesabat yığıncağında Astaranın dinamik inkişafı ilə bağlı konkret faktlar göstərilib və qarşıda duran vəzifələrə diqqət cəlb edilib. İcra hakimiyyətinin başçısı Qəzənfər Ağayev bildirib ki, ötən müddətdə Astarada uğurlar bütün sahələri əhatə edib, quruculuq işləri genişləndirilib.

Hesabat dövrü ərzində ümumi məhsul və xidmətlərin həcmi 81,4 milyon manat təşkil edib. Rayonda inşaat işlərinin aparılması üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11,4 milyon manat məbləğində vəsait yönəldilib.

Azərbaycan Respublikası Prezidentinin 8 iyun 2017-ci il tarixli sərəncamına uyğun olaraq Park-bulvar kompleksinin genişləndirilməsi müvəffəqiyyətlə davam etdirilib, hazırlanmış layihəyə əsasən nəzərdə tutulan işlər başa çatmaq üzrədir.

Burada AAAF tərəfindən inşa edilən kotteclərin tikintisinin başa çatdırılması, oteldə tamamlama işlərinin aparılması sürətləndirilib. Eyni zamanda bulvar ərazisində atçılıq idman klubu üçün meydança və binanın tikintisi, sürət maşınlarının “World carting” yarış meydançasının salınması işi davam etdirilir.

Rayon ərazisindəki magistral və yerli əhəmiyyətli yolların təmiri, abadlaşdırılması daim diqqətdədir. “Şimal-Cənub“ nəqliyyat dəhlizinin tərkib hissəsi sayılan Ələt-Astara-İran sərhədi avtomobil yolunda yol çiyinləri hamarlanıb, 4400 kvadratmetr asfalt-beton qarışığından çala təmiri işləri görülüb.

Hesabat dövründə rayon sakinləri üçün ən yaddaqalan hadisələrdən biri də Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisinə başlanması olub. 9 min nəfər əhalinin yaşadığı, 3 yaşayış məntəqəsini birləşdirən 11 km uzunluğunda olan dairəvi yolun böyük hissəsinə yüksək keyfiyyətli asfalt döşənib, bu istiqamətdə işlər davam etdirilir.



Rayonda istehlakçıların su, qaz və dayanıqlı elektrik enerjisi ilə təmin olunmasından ötrü tədbirlər görülür.

Bala Şahağac kəndində inşa edilmiş modul tipli məktəb binası istifadəyə verilib, Siyətük kənd modul tipli ibtidai məktəbin tikintisi yekunlaşıb.

Ümumtəhsil məktəblərinin məzunlarından 352 nəfəri ali məktəblərə qəbul imtahanlarının hər iki mərhələsində iştirak edib, 235 nəfər ali məktəblərə keçid balını toplayıb. Onlardan 25 nəfəri 500-dən, 7 nəfəri isə 600-dən yuxarı bal qazanıb.

Astarada aqrar sahənin inkişafına diqqət daha da artırılıb. Rayon ərazisində əkilmiş 252 hektar taxılın 182 hektarı buğda, 70 hektarı arpadır. 450 hektar ərazidə çəltik əkilib ki, quraqlıqla əlaqədar növbəli sistem əsasında suvarma suyunun sahələrə çatdırılması tənzimlənir. Son illər ərzində 1280 hektar yeni sitrus bağları salınıb və rayon üzrə bu bağların ümumi sahəsi 3625 hektara çatdırılıb.

Rayon ərazisində mövcud 345 hektar çay sahəsində may ayında çay yarpağı yığımına başlanıb, birinci yığımda 235 ton çay yarpağı yığılaraq fabriklərə təhvil verilib. Hazırda ikinci yığım gedir.

Baramaçılığın inkişafı ilə əlaqədar bu il ilk dəfə olaraq rayona 52 qutu barama qurdu gətirilərək kümçülərə paylanıb, 769 kiloqram barama tədarük olunub və Şəki İpək Kombinatına təhvil verilib. Astara Meşə Mühafizəsi və Bərpası Müəssisəsində bu il 15 hektar sahədə aqromeyvə bağları salınıb.

Q. Ağayev sonra bildirib ki, rayonun əlverişli təbii şəraiti, yaradılmış yol və mədəniyyət infrastrukturu turizmin inkişafına geniş imkanlar açdığından, iş adamları bu sektora diqqəti daha da artırmalıdırlar.

Məruzə ətrafında müzakirələrdə rayon icra hakimiyyəti başçısının Sancərədi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Zaur Həsənov, Kənd Təsərrüfatı İdarəsinin rəisi Etibar Abbasov, Su Sistemləri İdarəsinin rəisi Habil Manafov və başqaları iştirak ediblər.

Sonda bu və digər məsələlərlə əlaqədar tövsiyə və tapşırıqlarını verən icra başçısı görülən işlərin nəticələrinə əsasən 2018-ci ilin Astara rayonu üçün yüksək inkişaf və bolluq ili olacağına əminlik ifadə edib.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***




## ABŞ

### Yeni "iPhone" smartfonları



Növbəti nəsil "Apple" smartfonlarının təqdimetmə tarixi məlum olub. Bildirilir ki, son illər üzrə təqdimat cədvəli və bəzi başqa amillərə əsaslanaraq, yeni smartfonların 12 sentyabr 2018-ci il tarixində təqdim ediləcəyi gözlənilir.

Məlumata görə, "Apple" 5,8 və 6,5 düym diaqonallı iki OLED-model, yeni "iPhone X" və "iPhone X Plus", həmçinin "iPhone 9" adlandırılan 6,1 düymlük ucuz LCD-modelini təqdim edəcək. Bütün aparatlar çərçivəsiz dizayn, sifətə görə istifadəçinin tanınması funksiyası ("Face ID") və "A12" sürətli prosessoru ilə təchiz ediləcək.

**Xəbəri "ferra.ru" verib.**

## Rusiya

### Jirinovski qarət edilib



Rusiya Liberal-Demokrat Partiyasının (RLDP) sədri Vladimir Jirinovski "Lurk" haker qrupu tərəfindən qarət edilib.

Eyni zamanda Jirinovskinin oğlu, deputat İqor Lebedev və Dövlət Dumasında RLDP fraksiyası sədrinin birinci müavini Vadim Denqin də qarətə məruz qalıblar. Hüquq-mühafizə orqanlarına yaxın mənbələr haker hücumlarının baş verdiyini təsdiqləyiblər.

**Xəbəri RİA "Novosti" yayıb.**

## Türkiyə

### Külli miqdarda heroin ələ keçirilib



Van vilayətinin Tuşba rayonunda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı uğurlu əməliyyat keçirilib. Türkiyənin təhlükəsizlik qüvvələrinin keçirdikləri əməliyyat nəticəsində 502 paketdə qablaşdırılmış, ümumi çəkisi 384.594 kiloqram olan heroin aşkar olunub.

Faktla bağlı bir nəfər həbs olunub. Araşdırma aparılır.

**Xəbəri "Anadolu" agentliyi yayıb.**

## Əfqanıstan

### Məsciddə partlayış



Əfqanıstanın şərqindəki Qardez şəhərində (Paktiya vilayəti) məsciddə partlayış baş verib. Hadisə zamanı 20 nəfərin öldüyü, 40 nəfərin yaralandığı bildirilir. Məlumatda deyilir ki, partlayış cümə namazı vaxtı iki terrorçu-kamikadze tərəfindən törədilib.

Yerli hökumət orqanları partlayış olduğunu təsdiqləyiblər. Hadisənin təfərrüatları aydınlaşdırılır.

**Xəbəri TASS yayıb.**

## Argentina

### Milli komandada məşqçi dəyişikliyi



Rusiyada keçirilən 2018-ci il dünya çempionatındakı uğursuzluğa görə baş məşqçi Xorxe Sampaolinin istefaya göndərilməsindən sonra Argentina millisinin baş məşqçisi vəzifəsinə Lionel Skaloni gətirilib.

Bildirilir ki, ona bu işdə Pablo Aymar və Martin Takolli kömək edəcəklər. 40 yaşlı mütəxəssis futbolçu karyerası ərzində İspaniyanın "Deportivo", "Rasinq", "Malyorka", İtaliyanın "Latsio" və İngiltərənin "Vest Hem" komandalarında çıxış edib və Argentina millisində 7 oyun keçirib.

**Xəbəri "Goal.com" yayıb.**

***Hazırladı:***
***Elçin ABBASOV, "Xalq qəzeti"***

# Şəhriyar Məmmədyarova Beynəlxalq Şahmat Turnirinin mükafatı təqdim olunub

❒ ***İsveçrənin Bil şəhərində iyulun 21-dən bəri davam edən Beynəlxalq Şahmat Turnirinə yekun vurulub. Bil Konqres Mərkəzində baş tutan bağlanış mərasimində qaliblərə mükafatlar təqdim olunub.***



Trend-in məlumatına görə, tədbirdə çıxış edən Azərbaycanın İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı səfiri Xanım İbrahimova qonaqları salamlayıb və ölkəmizdə olan şahmat ənənəsi və şahmatçılarımızın uğurlarından bəhs edib. O, ölkəmizdə şahmatın qədim tarixə malik olduğunu, müstəqillikdən sonra Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və yaranmış sosial-iqtisadi problemlərə baxmayaraq bu idman növünün daha da inkişaf etdiyini vurğulayıb.

X.İbrahimova hazırda Azərbaycanda şahmata xüsusi dövlət qayğısının olduğunu və ölkəmizin Beynəlxalq Şahmat Federasiyasına üzv olan 180-ə yaxın ölkə arasında şahmatın inkişaf etdirilməsi üzrə xüsusi Dövlət Proqramı qəbul etmiş yeganə ölkə olduğunu diqqətə çatdırıb.

Səfir Şəhriyar Məmmədyarovun Azərbaycan şahmat məktəbinin yetişdirdiyi dünya səviyyəli şahmatçılardan biri olduğunu bildirib və onu bu əlamətdar qələbə münasibəti ilə təbrik edib.

Daha sonra qaliblərin mükafatlandırılması mərasimi baş tutub. Turnirin qalibi Şəhriyar Məmmədyarova mükafat səfir Xanım İbrahimova tərəfindən təqdim olunub.

Qeyd edək ki, Azərbaycan təmsilçisi yarışın başa çatmasına bir tur qalmış şahmat turnirinin qalibi olub. O, yarışın doqquzuncu turunda 57-ci gedişdə ağ fiqurlarla norveçli dünya çempionu Maqnus Karlsen üzərində qələbə qazanıb.

# Çavuşoğlu və Pompeo Sinqapurda müzakirələr aparıblar

❒ ***Türkiyə və ABŞ-ın diplomatik missiyialarının rəhbərləri Mövlud Çavuşoğlu və Mayk Pompeo dünən ASEAN təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin Sinqapurda keçirilən iclası çərçivəsində görüşərək mühüm müzakirələr aparıblar. Türkiyəli nazir görüşün kontruktiv ruhda keçdiyini bəyan edib. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb.***



M.Çavuşoğlu və M.Pompeo Suriyadakı mövcud vəziyyəti, "Paralel dövlət" terror cərəyanının başçısı Fətullah Gülənin Türkiyəyə ekstradisiyası, "F-35" qırıcılarının beşinci nəslinin Türkiyəyə verilməsi, eləcə də amerikalı keşiş Endryu Bransonun həbsdən azad edilməsi və s. məsələləri müzakirə ediblər.

M.Çavuşoğlu həmin məsələlər üzrə Ankaranın mövqeyini bir daha amerikalı həmkarına izah edib. O vurğulayıb ki, Türkiyəyə münasibətdə təhdid və sanksiyalar dili mənasızdır. Bununla bərabər, Ankara Vaşinqtonla problemlərin dialoq yolu ilə həllinə hazırdır.

Qeyd edək ki, son 15 gün ərzində M.Çavuşoğlu və M.Pompeo arasında beş dəfə telefon bağlantısı olub. Sonuncu dəfə, üç gün əvvəl ABŞ-ın dövlət katibi Türkiyənin xarici işlər nazirinə zəng vurmuşdur.

NATO üzrə müttəfiqlər – ABŞ ilə Türkiyə arasında münasibətlər kəskin pisləşib. İki gün əvvəl Ağ ev Türkiyənin ədliyyə və daxili işlər nazirlərinə sanksiyalar tətbiq edilməsi barədə qərar qəbul edib.

Yeri gəlmişkən, Sinqapurda M.Çavuşoğlu ilə M.Pompeonun görüşü sanksiyaların tətbiqindən əvvəl razılaşdırılıb.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# 2500 manat cərimə



❒ ***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Qaynar xətt"inə Xəzər rayonu, Buzovna qəsəbəsinin Xəzər dənizi sahili zolağına çirkab suyun axıdılması ilə bağlı şikayət daxil olub. Şikayətlə bağlı Bakı Şəhər Ekologiya və Təbii Sərvətlər və Ətraf Mühit üzrə Milli Monitorinq Departamentlərinin əməkdaşları tərəfindən yerində monitorinq və araşdırma aparılıb.***

Sözügedən ərazidən çirkab su axan hissədən götürülən nümunələr üzərində aparılan analizlərin nəticələrinə görə suyun tərkibində çirkləndirici maddələrin normadan artıq olduğu müəyyən edilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, faktla bağlı əraziyə cavabdeh olan Bakı Su kanal İdarəsinin rəisi Habil Quliyev barəsində akt və protokol tərtib edilib və o, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən vəzifəli şəxs qismində 2500 manat məbləğində cərimə olunub.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# İnsan ömrünü uzatmağın yolu tapıldı

❒ ***Amerikalı biomühəndislər insan ömrünü uzatmağın yolunu tapıblar.***



ABŞ KİV-nin məlumatına görə, biomühəndislər donuzlara süni yetişdirilmiş ağciyər köçürüblər.

Transplantasiya əməliyyatından qısa müddət sonra orqanlar adaptasiya olunub. Bu vaxtadək məhz patoloji cəhətdən zədələnmiş ağciyərlər orqanizm tərəfindən qəbul edilmədiyindən mükəmməl transplantasiya üçün yararsız hesab olunurdu. Tədqiqatçılar qidalandırıcı məhlulda laboratoriya heyvanlarının bütün hüceyrələrini çıxarmaqla zülal strukturundan orqanlar yetişdirməyə nail olublar. Yerdə qalan elastik üçölçülü əsas sahə resipiyent donuzun hüceyrələri ilə doldurulub. Yetişdirmə prosesi bir aya başa çatıb. Bundan sonra orqanlar fərdi damar şəbəkəsi yaradıb.

İlk uğurlara baxmayaraq, hələ alimlərin qarşısında insan orqanlarının yetişdirilməsi metodikasının hazırlanması ilə bağlı çoxlu problemlər var. Bu məsələdə resipiyentin yaşı və transplantasiya dövrünədək həyat tərzi mühüm rol oynayır. Lakin alimlər əmindirlər ki, yaxın zamanlarda eksperimentlərin müsbət nəticələrini əldə etmək mümkün olacaq. Birinci mərhələ uğurla başa çatıb. Elmi dairələr bu istiqamətdə tədqiqatların nəticələrini diqqətlə izləyirlər.

***Rövşən ATAKİŞİYEV,***
***"Xalq qəzeti***

## Hava proqnozu

➲ **Avqustun 4-də**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 24-26, gündüz 28-33, Bakıda gecə 24-26, gündüz 31-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu 26-27 dərəcəyə çatacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, şimşək çaxanda arabir güclənəcək. Gecə 20-25, gündüz 34-39 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 13-18, gündüz 23-28 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Gündüz yağış tədricən kəsiləcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 19-24, gündüz 30-35 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı,yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 18-23, gündüz 29-34, dağlarda gecə 12-17, gündüz 21-26 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 21-26, gündüz 34-39 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Gecə 24-26, gündüz 31-36, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacaq.

# ABŞ şirkətlərinin məlumatlarını oğurlayan hakerlər həbs ediliblər

❒ ***ABŞ-da Ukraynadan olan kibercinayət qruplarının birinin üç rəhbəri həbs edilib. Onlar yüzdən çox ABŞ şirkətinin sisteminə daxil olaraq, milyonlarla müştərinin kredit kart məlumatlarını oğurlamaqda şübhəli bilinirlər. Bu barədə "Amerikanın səsi" radiosu məlumat yayıb.***



Məlumatda vurğulanır ki, amerikalı təhqiqatçılar FIN 7 haker qrupunun üç liderini müəyyən etməyə müvəffəq olublar. Onlar ukraynalı 44 yaşlı Dmitro Fedorov, 33 yaşlı Fedir Hladir və 30 yaşlı Andri Kolpakovdur.

Vaşinqtonun Qərb ərazisi üzrə prokuroru Anet Heyes bu məsələ ilə bağlı deyib: "Təhqiqat davam edir. Biz heç də həmin qrupun qarşısını tamamilə aldığımızı güman etmirik. Lakin biz qrupa çox əhəmiyyətli zərbə vurmuşuq."

Müstəntiqlər deyirlər ki, FIN7 haker qrupunun üzvləri gizli yolla ABŞ şirkətlərinin satış nöqtələrinə kiber hücumlar edir, məlumatları əldə edərək, onları internet vasitəsilə satmağa cəhd edirlər.

***Mahmud QƏRİBOV, "Xalq qəzeti"***

# "Google" şirkətinə qarşı qadağa ləğv olunub




❒ ***Çin hökuməti tərəfindən qadağan edilmiş "Google" brauzeri yenidən istifadəyə veriləcək. Bu barədə "Webtekno.com" saytı xəbər verib.***

Belə ki, şirkət "Google" axtarış sisteminə bəzi məhdudiyyətlər qoyub. Təsdiq ediləcək yeni versiyada Çinin qadağan etdiyi bəzi saytlara giriş bloklanıb. Həmçinin insan hüquqları, demokratiya, din və dinc etirazçılar ilə əlaqəli sözlər və s. axtarıldıqda belə heç bir nəticə göstərilməyəcək.

Qeyd edək ki, "Google" şirkətinin idarə heyətinin rəhbəri Sundar Pichai yüksək səviyyəli Çin hökumət rəsmiləri ilə apardığı danışıqlardan sonra layihə daha da sürətlənib. Çin hökuməti təsdiq üçün 6-9 ay müddət tələb edib.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

# Avropada dəhşətli istilər

❒ ***İsti hava şəraiti nəticəsində İspaniyada iki nəfər ölüb. Sinoptiklər bildiriblər ki, kölgədə havanın temperaturu 47 dərəcə təşkil edir. Ölkədə təhlükəli vəziyyət elan edilib.***



İtaliya, Portuqaliya və Yunanıstan da təhlükəli zonalar sayılır. Burada havanın temperaturu 50 dərəcəyə çatır. Alimlər bildiriblər ki, Avropada Afrika istisi hökm sürür. İsti hava şəraiti nəticəsində Almaniyada çayların suyu azalıb, bəzilərində isə quruyub.

İsveçdə meşə yanğınları ilə bərabər dağlarda qar da əriməyə başlayıb.

Norveçdə isə havaların isti keçməsi ilə əlaqədar vəhşi heyvanlar tunellərə giriblər. Sürücülərdən xahiş edilib ki, mümkün qədər ehtiyatlı olsunlar.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Allah rəhmət eləsin

Ucar Rayon Polis Şöbəsinin rəisi Eldar Paşayev Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədova atası

**HƏMZƏ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 7471
SİFARİŞ 2272
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00